QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 021 (5741) **1 fevral** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


## Prezident İlham Əliyevin hücum diplomatiyası Ermənistanı dalana dirəyib

*Azərbaycanın Dağlıq Qarabağ məsələsində mövqeyi daha da güclənir*



Səh 3

"Almaniya şirkətləri uzun illərdir Azərbaycanda uğurlu fəaliyyət göstərir"



2

YAP-da deputatlarla görüş keçirilib



4

Prezident Administrasiyası: "Azərbaycanda kütləvi halda dini radikalizm yoxdur"



4

"Dağlıq Qarabağ münaqişəsinin həllində tezliklə köklü dəyişikliklər ola bilər"



4

Əli Kərimli, bəs hanı vəd etdiyin "on minlər"?



5

Ermənistanda daha bir məhbus aclıq elan edib



5

6

Bəhruz Quliyev: "Milli Şura" artıq tükənib"



12

"Ər-Riyad": "Azərbaycan tolerantlıq və inkişaf respublikasıdır"



16

Superliqanın bombardiri "Qalatasaray"da



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

1 fevral 2019-cu il

# "Almaniya şirkətləri uzun illərdir Azərbaycanda uğurlu fəaliyyət göstərir"

## *Prezident İlham Əliyev Almaniya nümayəndə heyətini qəbul edib*



### Rəsmi xronika

Prezident İlham Əliyev Bakı şəhərində professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Energetika Nazirliyində dövlət katibi Tomas Baraysın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı belə geniş tərkibdə nümayəndə heyətinin ölkəmizə səfərini Azərbaycanla Almaniya arasında əməkdaşlığın və tərəfdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirərək ölkələrimizin və biznes dairələrinin əlaqələrimizin genişləndirilməsi üçün qarşılıqlı maraq göstərməsindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin Azərbaycana səfərini məmnunluqla xatırlayaraq, həmin səfər çərçivəsində biznes nümayəndələri arasında çox səmərəli görüşlərin keçirildiyini vurğuladı. Dövlətimizin başçısı Tomas Baraysın rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əməkdaşlıq prosesinin davam etdirilməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi. Almaniya şirkətlərinin uzun illərdir Azərbaycanda uğurlu fəaliyyət göstərdiklərini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında tərəfdaşlıq və əməkdaşlıq əlaqələrinin bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə əmin olduğunu söylədi.

Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Energetika Nazirliyində dövlət katibi Tomas Barays qəbula görə nümayəndə heyətinin adından dövlətimizin başçısına minnətdarlığını bildirdi və Almaniyanın Federal Kansleri xanım Angela Merkelin salamlarını dövlətimizin başçısına çatdıraraq bu səfəri Federal Kanslerin Azərbaycana səfərinin davamı kimi dəyərləndirdi. Tomas Barays səfərdən öncə Angela Merkellə görüşdüyünü qeyd edərək bildirdi ki, xanım Kansler Azərbaycanla ikitərəfli iqtisadi əlaqələrin davam etdirilməsindən çox məmnundur. Ölkələrimizin ortaq tarixə malik olduğunu deyən Tomas Barays Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinin qeyd edildiyini vurğulayaraq Prezident İlham Əliyevin bu mühüm tədbirə böyük töhfə verdiyini bildirdi. O, rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibinə müxtəlif sahələri təmsil edən nümayəndələrin daxil olduğunu qeyd edərək onların Azərbaycanın əsl dostları olduğunu dedi və bu səfərin əməkdaşlığımızın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən energetika, neft-kimya, qeyri-neft sektoru, təhsil, peşə təhsili və digər sahələrdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı, alman şirkətlərinin Azərbaycandakı sənaye zonalarına maraq göstərdikləri qeyd olundu, onların Sumqayıt Kimya Sənaye Parkında iştirakına dair məsələlər müzakirə edildi.

Prezident İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri xanım Angela Merkelin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Almaniyanın Federal Kanslerinə çatdırmağı xahiş etdi.

# İtaliyanın daha bir xəbər agentliyi Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttindən reportaj hazırlayıb

***İtaliyanın "Askanews" informasiya agentliyində bu media qurumunun müxbirinin Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttinə, o cümlədən Beyləqan rayonuna səfəri əsasında hazırladığı reportaj yayılıb. AZƏRTAC xəbər verir ki, "Notizie Tiscali" və "Notizie Yahoo"nun da yaydığı reportajda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verilir.***

Təmas xəttinə daha da yaxınlaşdıqca Azərbaycan tərəfindən bu kimi ifadələr təkrar olaraq eşidilir: səbir tükənmək üzrədir, insanlar artıq yorulub, onlar öz yurdlarına qayıtmaq istəyirlər. Bu fikirlər Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və ətraf Beyləqan rayonunda müvəqqəti olaraq məskunlaşmış Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynova məxsusdur.

"İyirmi beş il sonra biz müharibə deyil, məsələnin həllini istəyirik, sülh danışıqları sonsuza qədər davam edə bilməz, bir nəticəsi olmalıdır. Səbrin bir sərhədi var və bizim səbrimiz sona yaxınlaşır. Bu gün Azərbaycan iqtisadi və hərbi baxımdan Ermənistandan daha güclüdür və biz ərazilərimizi silahla geri qaytara bilərik. Biz bir az da səbir edərik, amma bu, artıq istifadə edilmiş bir arqumentdir. Biz görürük ki, Ermənistan problemin həllini istəmir və insanlar artıq beynəlxalq ictimaiyyətə etibar etmir. Biz başqa ölkələr kimi İtaliyadan da kimin işğalçı olduğunu tanımasını istəyirik".

Bu fikirləri isə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov bildirir.

Reportajda qeyd edilir ki, 1994-cü ildən sonra bu bölgədə çox şey dəyişib. Azərbaycan təkcə regionda deyil, eyni zamanda, beynəlxalq səviyyədə nüfuzlu ölkəyə çevrilib. Dağlıq Qarabağın azərbaycanlı icması yorulub və öz yurdlarına qayıtmağı tələb edir. Münaqişə nəticəsində 30 min insan həlak olub, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün düşüb. "Ermənilər 1992-ci ildə Xocalıda soyqırımı törədərək etnik təmizləmə siyasəti aparıblar. Xocalıda qadın və uşaqlar da daxil olmaqla ümumilikdə 613 nəfər öldürülüb. Azərbaycan torpaqlarının 20 faizinin (Dağlıq Qarabağ və ətraf 7 rayon) işğalı nəticəsində öz yurdlarından didərgin düşmüş 1 milyon məcburi köçkünün yarısı ölkənin müxtəlif ərazilərində yerləşdirilib. Onların yerləşdirilməsi müharibədən sonrakı ilk illərdə əsasən beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirilsə də, indi Azərbaycan dövləti bu məsələyə öz töhfəsini verir. Məsələn, Beyləqanda beş qəsəbə var, onlardan üçü beynəlxalq təşkilatlar, ikisi isə dövlət tərəfindən maliyyələşdirilmə nəticəsində salınıb", - deyə icra başçısı bildirir.




Diqqətə çatdırılır ki, münaqişənin həlli ilə bağlı danışıqlar bu yaxınlarda yenidən bərpa edilib. Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında qeyri-rəsmi görüş olub və bu da ümidlənməyə əsas verir. Həmçinin xarici işlər nazirləri ötən ilin dekabr ayında ATƏT Nazirlər Şurası çərçivəsində Milanda görüşüblər və Ermənistanda hökumətin dəyişməsindən sonra ilk dəfə olaraq birgə bəyanat qəbul edilib.

"Dağlıq Qarabağın iki icması, erməni və azərbaycanlı icmaları arasında görüşlər keçirilsə, biz buna hazırıq. Erməni tərəfi harada istəsə, hətta İtaliyada da görüşə bilərik", - deyə Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev qeyd edib.

İşğal edilmiş ərazilərə yaxın bölgələrdə danışıqlara yavaş-yavaş inanmağa başlayırlar. Bunu 72 yaşlı, 2 şəhid anası Sevil Əzizova da təsdiq edir. O, Xocavənd rayonunun Qaradağlı kəndindəndir. Həmin kənddə 33 nəfər öldürülüb. "Ermənilər onların hamısını quyuya atıb və bizə deyirlər ki, gəlib meyitləri götürə bilərsiniz. Lakin biz geri dönüb öz meyitlərimizi şərəflə dəfn etmək istəyirik", - S.Əzizova bildirir. O deyir: "Mənim indi 39 yaşında bir oğlum var. Biz yenidən müharibə istəmirik, lakin əgər müharibə olsa, o, buna hazırdır".

# Prezident İlham Əliyevin hücum diplomatiyası Ermənistanı dalana dirəyib

## *Azərbaycanın Dağlıq Qarabağ məsələsində mövqeyi daha da güclənir*

***Azərbaycan Prezidenti İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial və ardıcıl mövqeyi artıq sözügedən konfliktlə əlaqədar, regionda tamam yeni bir vəziyyətin yaranmasına gətirib çıxarmaqdadır. Bu faktoru şərtləndirən ilk səbəblərdən biri budur ki, Azərbaycanın həyata keçirdiyi hücum diplomatiyası nəticəsində, Ermənistanın işğalçı siyasətinin ifşa edilməsi reallaşıb. Buna paralel olaraq Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ciddi nəticələr əldə olunub. Beləliklə, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bölgədə yeni reallığın yaranması üzə çıxıb.***



Azərbaycanın bütün sahələrdə əldə etdiyi uğurlar, qonşu ölkələrlə yüksək səviyyəli əməkdaşlığı, dostluq və mehriban qonşuluq siyasətini daha güclü olması Azərbaycan Prezidentinin uğurlu diplomatik siyasətinin real nəticəsidir. Təkcə, bir faktı qeyd etmək kifayətdir ki, Azərbaycan və Rusiya prezidentləri 2018-ci ildə 6 dəfə görüşüblər, ölkə rəhbərləri arasında mövcud olan şəxsi dostluq münasibətləri dövlətlər arasında bütün istiqamətlər üzrə əlaqələrin inkişafına olduqca mühüm təsir göstərir.

Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Duqin bu xüsusda bildirir: "Prezident Vladimir Putin Prezident İlham Əliyevlə şəxsi əlaqələrini daha da möhkəmləndirir. Biz Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanla münasibətlərdə ciddi yanaşma və məsuliyyət görürük. Putinlə dostluğun sirri təkcə simpatiyada deyil, həm də etibarlılıq və öz hərəkətlərindəki ardıcıllıqdadır. Rusiya Cənab İlham Əliyevin sözlərində və əməllərində dostluğun rəhnini görür. Ermənistanın baş naziri Nikol Paşinyanın söylədikləri əməllərinə uyğun olmadıqda isə, bunun nəticələri avtomatik olaraq Rusiya və Ermənistan münasibətlərinin bütün strukturuna təsir edir. Yəni xalqlar arasında münasibətlərlə siyasəti qarışıq salmaq olmaz. Siyasət xalqlar arasında münasibətlərlə üst-üstə düşdükdə, bunun çox böyük səmərəsi olur. Hazırda biz bunu Azərbaycanla münasibətlərdə müşahidə edirik: xalqlarımız dostluq edir, prezidentlər dostdurlar və bütün bunlar Azərbaycanın Cənubi Qafqazda mövqeyinin güclənməsinə, həmçinin, Rusiyanın mövqeyinin möhkəmlənməsinə şərait yaradır".

Azərbaycan strateji müttəfiqimiz olan istər İran, istər Türkiyə və istərsə də Gürcüstan Qarabağ məsələsinə yanaşmada ölkəmizin mövqeyini tam dəstəkləyirlər. Bütün bunlar isə, Prezident İlham Əliyevin uğurlu diplomatik xarici siyasətinin real nəticəsidir.

### Ermənistan iflasdan-iflasa

Bu gün işğalçı Ermənistanın sosial-iqtisadi cəhətdən vəziyyətin daha da pisləşdiyi, ölkədə tənəzzül prosesinin durmadan genişləndiyi müşahidə olunur. Bunun səbəbi yeni baş nazir Nikol Paşinyanın sələfi Sarkisyandan fəqrlənməyən siyasəti, eləcə də, iqdisadi və hərbi savadsızlığı ilə bağlıdır. Halbuki Ermənistan hakimiyyəti inqilabi dəyişiklikdən sonra yeni seçilən baş nazir Nikol Paşinyan xalqına müraciətində demişdir ki, bundan sonra Ermənistan iqdisadiyyatı yüksələn xətlə inkişaf edəcək və bütün sferalarda islahatlar aparılacaq. Ancaq Paşinyanın hakimiyyət dönəmini təhlil edən siyasi şərhçilər və araşdırmaçı erməni yazarlar ölkədə heç bir inkişaf və islahatlar getmədiyini qeyd edirlər. Sabiq prezident Serj Sarkisyanın dövründən qalan tənəzzül, iflas, korrupsiya və bürokratik əngəllər bu gün də davam etməkdədir. Ermənistanın geridə qalmış ölkə kimi, hər zaman Rusiyanın köməyi hesabına yaşadığı sirr deyil. İndi isə Nikol Paşinyan Avropa dairələrinin köməyinə güvənərək, yardım istəməsi də ölkənin iflas həddində olduğunu aydın şəkildə görmək mümkündür.

Bir sözlə, acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan, necə deyərlər, Ermənistanı iflasdan-iflasa sürükləməkdədir. Bu faktdır ki, Ermənistanın heç bir sərvəti olmayan, qonşu ölkələrlə iqdisadi potensialı olmayan və nədən qazanıb iqdisadiyyat quracağı bəlli deyil. Nə qədər ki, Ermənistan Azərbayanın işağal altındakı torpaqlarını azad etməyəcək, bir o qədər ağır iqtisadi, siyasi məhrumiyyətlərə, məşəqqətlərə düçar olacaq. Bunu dərk etmək çətin olmasa da, N.Paşinyan anlamaq istəmir. Çünki müstəqil deyil, böyük güclərin və erməni lobbisinin əlində oyuncaqdır. Qondarma gedişlər etməklə, bu ölkə itirməkdə olan siyasi imicini möhkəmləndirməyə çalışır.

Siyasi İnnovasiya Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu N.Paşinyanın ağıllı, savadlı, dərin düşüncəli rəhbər olmadığını bildirib: "Quyuya su tökməklə, quyu dolmaz. Paşinyanın siyasət deyilən məsələdən xəbəri yoxdur. Fikir vermisinizsə, "Exo Moskvı" televiziyasına verdiyi müsahibəsində Paşinyan deyirdi ki, mən oğlumu Dağlıq Qarabağa sülh məqsədi ilə göndərmişəm, orada müharibə getmir. Amma müsahibənin digər bölümündə bildirir ki, əgər mənim oğlum ordadırsa və öz ölkəmi və xalqımı qorumaqdan ötrü heç nəyimi əsirgəməyəcəm. Baxın, N.Paşinyanın fikirləri bir-birinə zidd mövqelidir. Birincisi, oğlunu Dağlıq Qarabağa göndərməklə sən dərin düşüncəli yox, əksinə, dayaz düşüncəli adam olduğunu sübut etmisən. İkincisi, onun oğlunun hərbi xidmət yaşı Ermənistan qanunlarına görə, 4-5 il bundan qabaq keçib. Görürsünüz, Paşinyan oğlunu Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ ərazisinə xidmət etməyə göndərməklə, sadəcə, radikallar qarşısında siyasi xal yığmağa ümid bəsləyir".

M.Əhmədoğlunun sözlərinə görə, erməni radikallar da başa düşürlər ki, Paşinyan oğlunun adından manipulyasiya edir: "Mənim şəxsən oxuduğuma görə, N.Paşinyanın oğluna Xənkəndidə kirayə mənzil axtarırlar ki, orada yaşasın. Adı olacaq ki, guya Paşinyanın oğlu Dağlıq Qarabağda xidmətdədir. Məsələ aydındı ki, hərbi xidmət adı altında kef edəcək".

M.Əhmədoğlu onu da bildirdi ki, beynəlxalq məhkəmələrdə ən vacib məsələ Azərbaycan tərəfdən Ermənistanın Dağlıq Qarabağa müdaxiləsi sübut edilən arqumentlər və faktlardır: "Mən 10-15 il qabağın faktlarını deyirəm. İndi ən yaxşı sübut və fakt əlimizdədir. N.Paşinyan Ermənistan vətəndaşıdır və baş naziridir. Oğlunun Ermənistan vətəndaşı olaraq Dağlıq Qarabağda xidmət keçməsi, o deməkdir ki, Dağlıq Qarabağ müstəqil deyil, amma İrəvan tərəfindən idarə olunur. Bu fakt beynəlxalq hüquq müstəvisində Azərbaycanın mövqeyini xeyli yaxşılaşdırdı. Kəşfiyyatçılarımız nə edəcək və nə iş görəcək, bilmirəm, amma bu, arzuolunandır ki, hüquqşünaslarımız məhz N.Paşinyanın oğlunun Dağlıq Qarabağda xidmət keçməsi və Dağlıq Qarabağın İrəvandan idarə edilməsi faktını beynəlxalq məhkəməyə versin. Bu çox vacib məsələdir. N.Paşinyan bu hərəkətləri ilə nə qədər qanmaz, savadsız olsa da, o, başa düşür ki, Prezident İlham Əliyevlə görüşməsi onun səviyyəsinə uyğun deyil".

Politoloq onu da bildirib ki, digər tərəfdən, Azərbaycanın yürütdüyü uğurlu təcrid siyasəti Ermənistan üçün artıq ciddi problemdir: "Bakı açıq bəyan edir ki, işğal davam etdikcə, Ermənistanı təcrid etmək üçün bütün vasitələrdən istifadə edəcək. Əslində, bu siyasət öz nəticəsini verib, belə ki, düşmən ölkədə kriminal rejim çökdü və Ermənistanda yeni vəziyyət yarandı. Belə vəziyyət, eyni zamanda, Ermənistanın yeni rəhbərliyinə bir siqnaldır. Bu ölkəyə başçılıq edən istənilən şəxs bilməlidir ki, Ermənistanda inkişaf və sabitlik Dağlıq Qarabağ münaqişəsi həll edilməyənə qədər bərqərar olmayacaq".

Ümumiyyətlə, real vəziyyəti təhlil edən ekspertlərin, demək olar, hamısının mövqeyi bundan ibarətdir ki, Ermənistanın bir dövlət olaraq mövcudluğu və gələcəyi Dağlıq Qarabağ amilindən asılıdır. Azərbaycan torpaqlarını işğal altında saxlayıb, qonşu dövlətlərə ərazi iddiası irəli sürmək isə erməni dövlətinin gələcəyini təhlükə altına alır. Bu baxımdan, Ermənistanda vəziyyətin düzəlməsinin əsas şərtlərindən biri və ən başlıcası, İrəvanın öz qoşunlarını Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarmasıdır. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir.

***A.Səmədova***

# YAP-da deputatlarla görüş keçirilib

***Dünən Yeni Azərbaycan Partiyasının qərargahında Azərbaycan Respublikası Milli Məclisində partiyanı təmsil edən deputatlarla görüş keçirilib. SİA-nın verdiyi məlumata görə, YAP Sədrinin müavini-İcra katibi, Baş nazirin müavini Əli Əhmədov bu görüşün partiyanı Milli Məclisdə təmsil edən deputatların fəaliyyətinin əlaqələndirilməsi baxımından əhəmiyyətli olduğunu bildirib.***







2018-ci ilin ölkəmiz üçün uğurlu olduğunu deyən Əli Əhmədov qeyd edib ki, Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında və "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda çıxışı zamanı dəyərləndirmələri bütövlükdə ötən ilin yekunlarına verilən ən düzgün və əhatəli qiymətdir. Dövlətimizin başçısı həmçinin, 2019-cu ildə qarşıda duran vəzifələrlə bağlı öz fikirlərini geniş şəkildə ifadə etdi.

"Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2018-ci il kifayət qədər uğurlu il kimi tariximizə daxil oldu. Bu dövrdə qarşıya qoyulan vəzifələr lazımi səviyyədə yerinə yetirilib. 2018-ci ildə Azərbaycanın dinamik inkişafı davam edib. Azərbaycanda bir neçə il əvvəl Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan islahatlar öz səmərəli nəticələrini verməkdədir. Şübhəsiz ki, islahatların uğurlu nəticələri bundan sonra daha genişmiqyaslı olacaq. Eyni zamanda, Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər də önəmli nəticələr verməkdədir. Görülən işlər qeyri-neft sektorunun inkişafının qarşıdakı dövrdə daha dinamik xarakter alacağını təsdiqləyir. Bu məqsədlə müvafiq proqramların icrası ilə bağlı resurslar səfərbər edilib və bunun üçün bütün imkanlar mövcuddur" deyə YAP Sədrinin müavini vurğulayıb.

Əli Əhmədov qeyd edib ki, regionların sosial-iqtisadi inkişafına dair 3-cü dövlət proqramına yekun vurulub. Beləliklə, Azərbaycanın ümumi inkişafı prosesində regionların ciddi şəkildə inkişaf etdirilməsi, simasının dəyişdirilməsi, müasirləşdirilməsi istiqamətində Prezident İlham Əliyevin təşəbbüsü ilə müəyyənləşdirilmiş Dövlət proqramı uğurla yerinə yetirilib: "Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı çərçivəsində bütün götürülən öhdəliklər yüksək səviyyədə yerinə yetirilib. Aparılan təhlillər nəticəsində bu fikir bir daha təsdiqini tapır ki, Azərbaycan sözün həqiqi mənasında XXI əsrin ən uğurlu dövlətlərindən biridir. Azərbaycanın dinamik sosial-iqtisadi inkişafı bu fikri deməyə əsas verir. Son 15 ildə iqtisadiyyatımız 3 dəfədən çox artması, yoxsulluğun səviyyəsi 50 faizdən 5 faizə düşməsi , 2 milyona qədər iş yerinin açılması möhtəşəm göstəricilərdir. Digər tərəfdən, modernləşmə siyasətinin həyata keçirilməsi Bakı şəhəri ilə yanaşı, regionların simasının əhəmiyyətli dərəcədə yeniləşməsi ilə müşahidə olunur. Eyni zamanda, bu illər ərzində əhalinin rifahı xeyli dərəcədə yüksəlib". YAP Sədrinin müavini Əli Əhmədov daha sonra qarşıda duran vəzifələrlə bağlı fikirlərini bildirib.

# Prezident Administrasiyası: "Azərbaycanda kütləvi halda dini radikalizm yoxdur"



Azərbaycanda ayrı-ayrı şəxslərin radikal düşüncələri ola bilər. Amma Azərbaycanda kütləvi halda dini radikalizm yoxdur. Buna yalnız cəhdlər edilir. SİA-nın məlumatına görə, bunu Azərbaycan Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin əməkdaşı Pənah Cahangirov "Dini və ideoloji təhlükəsizlik" mövzusunda keçirilən seminar-müşavirədə deyib. Onun sözlərinə görə, dövlət dinlə mübarizə aparmır: "Azərbaycanda nə dövlət, nə də cəmiyyət dinə qarşı ola bilməz. Biz Azərbaycanda yalnız radikalizmə qarşı olmuşuq. Çünki radikalizm xalqımıza məxsus olan hal deyil. Tarixə də nəzər salsaq, görərik ki, azərbaycanlılar heç zaman dini müharibələrdə iştirak etməyiblər. Hətta Babəkin rəhbərliyi ilə aparılan Xürrəmilər hərəkatı da azadlıq uğrunda mübarizə olub. Sovet dövründə bunu bizə islam dininə qarşı aparılan mübarizə kimi təqdim ediblər. Azərbaycan xalqı heç zaman radikal olmayıb. Azərbaycanda dövlət tərəfindən dinə qarşı hər hansı basqının olmasından söhbət gedə bilməz. Dövlət orqanları tərəfindən radikalizmə qarşı mübarizə aparılır". P.Cahangirov radikalizmə yoluxanların əsasən gənclər olduğunu da söyləyib: "Bu "yoluxucu" xəstəliyə qarşı ən yaxşı peyvənd təhsildir. Təhsil ən gözəl preventiv addımdır. Azərbaycanda dövlət öz risklərini məharətlə idarə edir".

# "Dağlıq Qarabağ münaqişəsinin həllində tezliklə köklü dəyişikliklər ola bilər"



Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində tezliklə müsbət köklü dəyişikliklər ola bilər. AZƏRTAC xəbər verir ki, bu fikri "Moskva-Bakı-Ankara geosiyasi oxu" dəyirmi masasında politoloq, Rusiyanın Siyasi Tədqiqatlar Mərkəzinin direktoru Sergey Markov söyləyib. "Bu məsələ ilə bağlı müsbət yeniliklər var və yaxın vaxtlarda Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında ciddi dönüş gözlənilir. Bu istiqamətdə Azərbaycanın Rusiya və Türkiyə ilə qarşılıqlı fəaliyyəti münaqişənin nizama salınması prosesində daha rəvan, dinc irəliləyişə nail olunmasını təmin edə bilər. Ermənistanın yeni rəhbərliyi də bu istiqamətdə ciddi addımlar atmağa hazırdır".

# Fondun KİV-ə maliyyə yardımı müsabiqəsinin şərtlərində dəyişiklik olunub

***Yanvarın 31-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının iclası keçirilib. KİVDF-nin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açıq elan edərək gündəlikdəki məsələlər barədə məlumat verib:***

1. Fondun 2019-cu ilin II rübü üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elanının müzakirəsi və təsdiqi;

2. Fondun yaranmasının 10-cu ildönümü və Novruz bayramı münasibətilə təşkil olunan fərdi jurnalist yazıları müsabiqəsinin elanının müzakirəsi və təsdiqi.

Müzakirəyə çıxarılan birinci məsələ barədə geniş məlumat verən icraçı direktor Vüqar Səfərli bildirib ki, 2019-cu ilin II rübü üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqənin 2019-cu il fevral ayının 1-dən martın 28-dək, "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nda əksini tapmış 19 istiqamət üzrə keçirilməsi nəzərdə tutulur.

Hazırda bütün dünyada internet media resurslarının sürətlə inkişaf etdiyini və çap mediasının obyektiv səbəblərdən problemlə üzləşdiyini diqqətə çatdıran Vüqar Səfərli bu baxımdan KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elanında müəyyən dəyişikliklərin edilməsinə ehtiyac olduğunu vurğulayıb. V.Səfərli bildirib ki, çap mediasının cəmiyyətdəki nüfuz və mövqelərinin möhkəmləndirilməsi məqsədilə qəzetlərin tirajı və yayımı ilə bağlı şərtlərə yenidən baxılması günün zəruri tələbinə çevrilib.

İcraçı direktor bildirib ki, müsabiqə elanında təklif olunan dəyişikliyə əsasən, Fondun KİV-ə maliyyə yardımı müsabiqəsində son 3 ildə müntəzəm gündəlik nəşr olunan, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3 formatda), tirajı 5000 nüsxədən az olmayan, hər buraxılışından ən azı 2000 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan ictimai-siyasi qəzetlər iştirak edə bilərlər. V.Səfərli, həmçinin qeyd edib ki, xarici dillərdə nəşr olunan gündəlik və həftəlik ictimai-siyasi qəzetlər üçün tirajın minimum 3000, satış və abunənin isə minimum 1500 nüsxə olması nəzərdə tutulur.





Sonra Müşahidə Şurasının üzvləri müsabiqə elanına təklif olunan dəyişikliklərlə bağlı fikirlərini bölüşüblər. Müşahidə Şurasının sədri Həsən Həsənov, üzvlərdən Cəmaləddin Quliyev, Bəhruz Quliyev, Əvəz Rüstəmov və Rasim Həsənov çap mediasının məzmun və forma baxımından daha da təkmilləşdirilməsi, fəaliyyətini yeni dövrün tələblərinə uyğun qurulması baxımından təklif olunan dəyişiklikləri müsbət dəyərləndiriblər. Müsabiqə elanı qeyd edilən dəyişikliklərlə birgə səsə qoyularaq yekdilliklə qəbul edilib.

Gündəlikdəki ikinci məsələ barədə məlumat verən V.Səfərli 2019-cu il aprelin 3-də Fondun yaranmasının 10-cu ildönümünün tamam olacağını diqqətə çatdırıb. İcraçı direktor bildirib ki, bu tarixin ölkə mediası və ictimaiyyəti üçün əhəmiyyəti nəzərə alınaraq Novruz bayramı münasibətilə təşkil edilən ənənəvi fərdi jurnalist yazıları müsabiqəsinin həm də Fondun yaranmasının 10-cu ildönümünə həsr edilməsi təklif olunur. O, həmçinin müsabiqənin fevralın 1-dən martın 15-dək "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nda əksini tapmış 19 istiqamət üzrə keçiriləcəyini vurğulayıb.

Vüqar Səfərli bildirib ki, fərdi jurnalist yazıları müsabiqəsinin elanına təklif olunan birinci dəyişikliyə görə, internet media resurslarında çalışan jurnalistlərin müsabiqəyə təqdim edəcəkləri yazıların qəzetlərdə dərci tələbi aradan qaldırılır. V.Səfərli qeyd edib ki, digər mühüm dəyişikliyə əsasən, şəffaflığın və işçilərin əmək hüquqlarının müdafiəsinin təmini məqsədilə Fondun fərdi jurnalist yazıları müsabiqələrində iştirak edəcək media nümayəndələrinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemi vasitəsilə elektron əmək müqaviləsi bildirişi təqdim etmələri təklif olunur.

Müşahidə Şurasının sədri Həsən Həsənov, üzvlərdən - Cəmaləddin Quliyev, Bəhruz Quliyev, Əvəz Rüstəmov və Rasim Həsənov jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması baxımından Fondun təşkil etdiyi fərdi jurnalist yazıları müsabiqələrinin əhəmiyyətini xüsusi qeyd ediblər. Müşahidə Şurasının üzvləri təklif olunan dəyişikliklərin jurnalistlərin mənafelərinə uyğun olduğunu, obyektiv reallığı əks etdiriyini vurğulayıblar. Gündəlikdəki ikinci məsələ təklif olunan dəyişikliklərlə səsə qoyularaq qəbul edilib.

# Əli Kərimli, bəs hanı vəd etdiyin "on minlər"?

*"Milli Şura" bu dəfə daha ağır iflasa uğradı*

***İctimaiyyət radikal müxalifətin "gücünü" bu dəfə də ADR-in qurucusu Məhəmmədəmin Rəsulzadənin doğum günü ilə bağlı Novxanıdakı abidəsi önündə gördü.***

Yalnız məsələ ondadır ki, hələ yanvarın 19-da "Məhsul" stadionunda "birləşmiş müxalifətin mitinqi" adı altındakı saxta aksiyalarında uzağı 2800 nəfər insanı toplaya bilən qara-qışqırıqçı "liderlər" bu dəfə nə "birləşə" bildilər, nə də ki, ayrı-ayrılıqda öz ətraflarına normal insan sayı yığmağı bacardılar. Daha dəqiq desək, bacardıqları 200-300 adam oldu ki, bunu da özlərinin iddiası kimi "on minlər" adlandırmaq ümumiyyətlə, qeyri-mümkündür. Ümumiyyətlə, uzun illərdir ki, arxı hoppanmamış "hop" deyən qaragüruhçular toplumunun iddiaları yenə də özünü doğrultmadı. Buna isə siyasi məğlubiyyətin zirvəsi adını versək, daha doğru olar.

Lakin bu məsələnin digər tərəfi də var ki, bu da iki minlik baryeri aşaraq, adam sayını vur-tut, 800 nəfər artırmaqla sünilik üzərində "xalq bizimlədir" şüarını səsləndirmək iddialarıdır. Əslində, bu rüsvayçılıq vəziyyəti sonrakı günlərə də təsadüf etdi və...

### İnsanlar "liderlərin" və dəstələrinin çağırışlarını qulaqardına vurdular!

...Və həmin gün də gəlib-çatdı. Belə ki, 10 gündən artıqdır sosial şəbəkələr və başqa vasitələrlə Məmmədəmin Rəsulzadənin ildönümünü "möhtəşəm aksiyaya" çevirəcəklərini bəyan edən "Milli Şura" adlı ölü qurum, o cümlədən, Müsavat, AXCP və digər partiyalarının "aqitatorları" möhtəşəm, hətta əsrarəngiz biabırçılıqla qarşı-qarşıya qaldılar. Bayaq da qeyd elədiyimiz kimi, abidəsinin yanına cəmi 200-300 adam yığıldı ki, o da pərakəndə bir şəkildə, insanlar "liderlərin" və dəstələrinin çağırışlarını qulaqardına vurdular!

Bu arada, "möhtəşəm aksiyanı" elə media nümayəndələri də müşahidə ediblər. Nətcədə məlum olub ki, 19 yanvarda özünü "müxalifətin dəyişilməz lideri" elan edib, 2800 nəfərlik aksiyanı təkbaşına təşkil etdiyini bağıran AXCP sədri Əli Kərimli və partiyasının yedək qurumu olan "Milli Şura" rəhbərliyi heykəlin yanına 100 nəfərdən bir az artıq adamla gəliblər. Təxminən, bir o qədər də Müsavat partiyasının fəallarıı olub. AXP sədri Pənah Hüseyn isə abidənin önünə 3 nəfərlə gəlib ki, bu gülünc reallıq da jurnalistlərin nəzərlərindən yayınmayıb. Yerdə qalan "möhtəşəm partiya" sədrləri isə tədbirə tək qatılmaq məcburiyyətində qalıblar. Bu zaman belə bir sual yaranır: əcəba, sözügedən fakt radikal müxalifətin nə dərəcədə miskin və acınacaqlı durumda



olduğunu əyani şəkildə nümayiş etdirmirmi? Bəs hanı "ümumxalq dəstəyi?", hansı "növbəti aksiyalara on minlərlə adam çıxaracağıq" iddialarının nəticəsi? Yoxdur, olmayıb və olmayacaq da. Çünki kor-kor, gör-gör - xalq belə müxalifətə heç vaxt dəstək göstərməyib, göstərmir və bundan sonra da göstərməyəcək. Təəssüf ki, hələ də bu gerçəkliyi dərk edə bilməyən radikal müxalifət "liderləri" iki ayaqlarını ölçüsü düz gəlməyən başmaqlarına dirəyərək, möcüzə gözləntisindədirlər. Halbuki, möcüzə belə, onlardan üz döndərib.

Yeri gəlmişkən, 19 yanvar mitinqindən sonra eyforiyaya qapılan Əli Kərimli yanvarın 20-də, ümumxalq hüzn günündə Şəhidlər Xiyabanını ziyarət edən zaman süni şəkildə polislərlə qarşıdurma yaradarkən, internet mediaya onunla xiyabana gələn "on minlərlə" adamın qarşısının necə alınmasından dəm vurmuşdu. Özünü təmizə çıxarmağa səy göstərən Kərimli utanmadan deyirdi ki, polis qəsdən "milli şura"nın tərəfdarlarını qrup şəklində Şəhidlər Xiyabanına buraxmır ki, az görünsünlər. Bəs hanı "on minlərlə adam"? Niyə onlar Azərbaycanın tarixində özəl yerlərdən birini tutmuş Məmmədəmin Rəsulzadənin abidəsi önünə belə, 200-300 adamdan artıq insan toplaya bilmədilər?

### Bütün bunlar göstərir ki, Əli Kərimli, Cəmil Həsənli və digər radikal müxalifət başçılarının dedikləri ağ yalan və ictimaiyyətin çaşdırılmasına yönəlmiş ucuz təbliğatdan başqa bir şey deyil

Əli Kərimlinin belə boş iddiaları daha bir hadisəni yada salır. Geçəkliyi yalan kimi xalqa sırımaq şakərində olan məhz AXCP sədridir ki, daha öncəki Şəhidlər Xiyabanına edilən ziyarətlərindən birində oraya axın edən yüz minlərlə insanların şəkillərini öz şəklinin arxasına fotoşop kimi birləşdirib, bunu AXCP və "Milli Şura" tərəfdarları adı altında xalqa sırımağa cəhd göstərmişdi. Bəli, Əli Kərimlinin əlindən gələn digər xəyanətlər, satqınçılıqlarla yanaşı, onun belə "bacarığının" da olması elə mətbuat tərəfindən faş edilmişdi.

Nəticədə daha bir sual yaranır ki, görəsən, "Milli Şura" Rəsulzadənin heykəlinin yanına o 10 minləri niyə aparmayıb və cəmi 120-130 adamla gəlib? Axı polis onlara heç bir maneçilik törətməmişdi! Maraqlıdır, AXCP sədri bu dəfə hansı bəhanələrini ortalığa atıb, özünü xalqa güldürəcək?

Beləliklə, bütün bunlar göstərir ki, Əli Kərimli, Cəmil Həsənli və digər radikal müxalifət başçılarının dedikləri ağ yalan və ictimaiyyətin çaşdırılmasına yönəlmiş ucuz təbliğatdan başqa bir şey deyil.

### Dövlətin apardığı islahatlar və uğurlu sosial siyasət Əli Kərimlini və s. radikal "liderləri" əndişələndirib!

Son olaraq isə, qeyd edə bilərik ki, ölkədəki sabitliyi, inkişafı öz çirkin xisləti ilə qaralamağa cəhd edən Əli Kərimli xüsusilə, dövlətin öz xalqına göstərdiyi xidmətindən əndişə keçirməyə başlayıb. Bu gün onun özü də yaxşı anlayır ki, aparılan struktur islahatları nəticəsində fəaliyyətinə xitam verilmiş orqanların əməkdaşlarının işlə təmin olunması barədə dövlət başçısının və birinci vitse-prezidentin tapşırıqları artıq icra olunmağa başlayıb, insanlar yeni iş yerləri ilə təmin olunmaqdadırlar və bu proses davamlı xarakter alır.

Dövlətin şəhid ailələrinə göstərdiyi diqqət və qayğısından qorxuya düşən AXCP sədri bu məsələdə də süni qarışıqlıq yaratmağa çalışsa da, şəhid ailələri üzərindən özünə xallar toplamağa cəhd etsə də, onun bu cəhdləri də boşa çıxdı. Dövlət rəhbərliyi şəhid ailələri ilə görüşdü, onların sosial-məişət həyatlarının daha da yaxşılaşdırılması yönündə Fərman və Sərəncamlar imzalandı, müavinətlər artırıldı, 11 minlik birdəfəlik müavinətlərin verilməsi isə bütün kateqoriyalara aid edildi, əlavə olaraq, dövlət şəhid ailələrinin mənzillərlə təmin edilməsi üçün daha 35 milyon manat ayırdı ki, bu siyasət də ardıcıl xarakterə malikdir.

Bütün bunlar isə həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, 19 yanvar mitinqi sadəcə, sabun köpüyündən başqa bir şey olmadı. Görünür, Əli Kərimli onun üçün nə qədər də ağır olsa belə, sonda bütün bu reallıqları anlamaq məcburiyyətinə qalacaq. Çünki onun məğlubiyyətini etiraf etməsi üçün başqa yolu da qalmayıb. Yox, əgər bunu etməyəcəksə, yaxud etmək istəməyəcəksə, demək ki, siyasi arenada siyasi meyit kimi qalmaq gerçəkliyi ilə süni həyatını yaşamağa, daha dəqiq desək, düşərgə daxilində sürünməyə davam etdirəcək.

**Rövşən RƏSULOV**

# Əli Əhmədov: "Heç kim tək deyil və öz problemləri ilə təkbaşına buraxılmayıb"

"Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin başlıca qayəsi insanlara qayğı göstərməkdən ibarətdir". SİA-nın verdiyi məlumata görə, bunu jurnalistlərə açıqlamasında Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov deyib.



Ə.Əhmədov bildirib ki, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinin üzvləri ilə görüşməsi ondan xəbər verir ki, bu gün Azərbaycan dövləti tərəfindən həyata keçirilən siyasətin ən əsas məqsədi budur: "Məqsəd insanlara xidmət, qayğı göstərmək, onların problemlərini həll etməkdir. Prezident İlham Əliyev hər dəfə regionlara səfəri zamanı insanlarla görüşür, onların arzu və istəklərini öyrənir, həyata keçirilən siyasətdə bütün bunları nəzərə alır. O ki qaldı şəhid ailələrinə göstərilən qayğıya, bir daha qeyd etmək istəyirəm ki, Azərbaycan iqtidarının həyata keçirdiyi siyasətin ən mühüm istiqamətlərindən biri ölkənin ərazi bütövlüyü, konstitusiya quruluşunun qorunması uğrunda mübarizədə şəhid olmuş insanların ailələrinə, eyni zamanda, xəsarət almış insanlara lazım olan yardımın, köməyin göstərilməsidir".

Baş nazirin müavininin sözlərinə görə, bu yaxınlarda şəhid ailələrinə böyük yardım edilməsi, eyni zamanda, şəhid ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında fərmanın imzalanması ondan xəbər verir ki, Azərbaycan dövləti bu siyasətin həyata keçirilməsində ardıcıl mövqeyini bu gün də davam etdirir və bundan sonra da bu siyasət həyata keçiriləcək: "Azərbaycan vətəndaşı əmin ola bilər ki, Azərbaycan dövləti və onun rəhbəri İlham Əliyev həmişə onların qayğısına qalır və dövlət daim onun arxasındadır. Heç kim tək deyil və öz problemləri ilə təkbaşına buraxılmayıb, Azərbaycan dövləti bütün vətəndaşların problemlərinin həll olunmasına kömək göstərməyi özünün başlıca məqsədi hesab edir".

# Milli Məclisin yaz sessiyasının ilk iclası keçiriləcək

Bu gün Milli Məclisin 2019-cu il yaz sessiyası başlayır. SİA-nın xəbərinə görə, parlamentin ilk plenar iclasının gündəliyinə isə məsələ daxildir. İclasda yaz sessiyasının qanunvericilik işləri planını təsdiq ediləcək, parlamentin Hesablayıcı komissiyasının, İntizam komissiyasının yenidən təşkil edilməsi haqqında məsələyə baxılacaq.



Deputatlar "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Sosial sığorta haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və s. qanunlara, eləcə də İnzibati Xətalar, Əmək, Cəzaların İcrası və Ailə məcəllələri və digər qanun layihələrini müzakirə edəcəklər. Qeyd edək ki, qanunverici orqanın toplantıları mayın 31-dək davam edəcək.

# Ermənistanda daha bir məhbus aclıq elan edib

***Ermənistanın "Armavir" cəzaçəkmə müəssisəsində ömürlük həbsə məhkum edilmiş məhbus Vaqarşak Avetisyan aclıq aksiyası elan edib. Xəbər verilir ki, bu barədə Ermənistan Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nona Navikyan bildirib. Onun sözlərinə görə, Avetisyan aclıq aksiyasına 30 yanvardan başlayıb və hazırda həkim nəzarətindədir.***

Vaqarşak Avetisyan 2008-ci ilin martında taksi sürücüsünü qətlə yetirməkdə ittiham olunur. Lakin o, günahsız olduğunu və məhkəmənin heç bir dəlilə əsaslanmadan



sadəcə bir nəfərin şahidliyi ilə ona ömürlük azadlıqdan məhrumetmə cəzanın verildiyini bildirir. Avetisyan, həmçinin məhkəmələrdəki özbaşınalıqdan, hökumətin məhbusların taleyinə biganə qalmasından şikayətçidir. Qeyd edilib ki, Avetisyan 2018-ci ilin avqustunda da aclıq elan etmiş, həmin aksiya zamanı intihara cəhd etmişdi.

Erməni KİV-ləri son zamanlar Ermənistan həbsxanalarındakı həm siyasi, həm də digər məhbuslar arasında aclıq edənlərin sayının artmasına və aksiyanın ölümlə nəticələnməsinə diqqət çəkir. Ən son nümunə isə "Nubaraşen" həbsxanasında saxlanılan "Ermənistan qartalları - Vahid Ermənistan" partiyasının sədr müavini, hökumət əleyhinə çıxdığına görə həbs olunan Mqer Yeqiazaryanın 44 günlük aclıq aksiyasından sonra yanvarın 26-da ölməsidir.

Bundan əlavə, Ermənistan mediası yazır ki, Vaqarşak Avetisyanın saxlanıldığı "Armavir" cəzaçəkmə müəssisəsində hələ cəmi 3 gün bundan əvvəl 61 yaşlı məhbus A.Aram və 20 yanvar tarixində isə digər məhbus Saak Saakyan dünyasını dəyişib. Onların ölümünə səbəb həbsxana nəzarətçilərinin məhbuslarla pis davranışı, qeyri-sağlam qidanın verilməsi və həkim nəzarətindən kənarda qalmaları olub.

# Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları ölkəmizin iqtisadi potensialının artırılmasında mühüm rol oynamışdır

*Milli Məclisin deputatı Tahir Mirkişilinin yap.org.az-a müsahibəsi*

***- Tahir müəllim, məlum olduğu kimi, Davosda keçirilən 49-cu Dünya İqtisadi Forumu və onun nəticələri hazırda gündəmin əsas mövzularından biri olaraq qalır. Ümumiyyətlə, Davos İqtisadi Forumunu qlobal platforma olaraq necə səciyyələndirərdiniz?***

- Dünya İqtisadi Forumu siyasi liderlərin, iri biznes rəhbərlərinin, tanınmış insanların və jurnalistlərin iştirakı ilə dünyanın vacib problemlərinin və gələcəyinin müzakirə olunduğu platformadır.

Davosda keçirilən bu ilki forumun əsas müzakirə mövzusu “Qloballaşdırma 4.0: dördüncü sənaye inqilabı dövründə qlobal arxitekturanın formalaşdırılması” idi. Forumda 110 ölkənin siyasi və biznes elitası iştirak edirdi. İştirakçıların ümumi sayı 3000 nəfərə yaxın idi. Dünya İqtisadi Forumu bu cür mövzuların hərtərəfli və açıq müzakirə olunduğu ən böyük platformadır. Siyasi və biznes elitanın bir yerdə dünyanın bu gününü və gələcəyini müzakirə etmək imkanına sahib olması çox faydalıdır və bu baxımdan forum unikaldır. Hər kəs qəbul edir ki, mövcud problemlərin həlli və gələcək çağırışlara cavab vermək yalnız birlikdə fəaliyyət göstərmək və təcrübə mübadiləsindən keçir. Məhz Dünya İqtisadi Forumu hər kəs üçün bu imkanı yaradır.

XXI əsrin başlaması ilə dünyada yeni, rəqəmsal dövr başladı. Dördüncü sənaye inqilabı adlanan bu dövr bütövlükdə cəmiyyətdə və iqtisadiyyatda uzun illər ərzində formalaşmış münasibətlərə ciddi təsir etməyə başlamışdır. Qlobal inkişafın və təhlükəsizliyin əsas platforması dəyişikliklərə məruz qalmaqda, mövcud metodların səmərəsi azalmaqdadır. Belə bir şəraitdə inkişafa təkan verəcək yeni münasibətlərin formalaşmasına və onların yeni üsullarla tənzimlənməsinə ciddi ehtiyac yaranmışdır. Dünyada sürətlə informasiya kommunikasiya texnologiyalarının yayılması insanların, biznes subyektlərinin və hökumətlərin əvvəllər malik olmadığı imkanlara sahib olmasına imkan yaratmışdır. Məhz bu yeni imkanların dünyanın inkişafına, insanların rifahının daha da yaxşılaşmasına yönəldilməsi bu gün müzakirə olunan əsas məsələlərdəndir. Forumun da əsas mövzusunun dördüncü sənaye inqilabı ilə bağlı seçilməsi bu günün ən aktual mövzusu ilə üst üstə düşür.

***- Azərbaycan da Forum üçün vacib tərəfdaşlardan biridir. Sizcə, Davos İqtisadi Forumunun ölkəmiz üçün əhəmiyyəti nədən ibarətdir?***

- Forumda iştirak edən dövlətlərin əsasən iki məqsədi olur. Birinci, öz təcrübələri haqda məlumat vermək, əldə etdikləri uğurları və bu təcrübəni hər kəslə bölüşmək. İkincisi, forumun yaratdığı imkanlardan istifadə edərək ölkəyə investisiya cəlb etmək, xarici tərəfdaşlarla əməkdaşlığı daha da gücləndirməkdir.

Azərbaycan da Davos Forumunda iştirak etməkdə hər zaman maraqlı olub. 1995-ci ildən başlayaraq Azərbaycan bu Forumda ölkə rəhbəri səviyyəsində iştirak edir. Bu il də Azərbaycan Forumda ölkə Prezidenti səviyyəsində təmsil olundu. Prezident İlham Əliyev Dünya İqtisadi Forumunda on birinci dəfə iştirak etdi. Azərbaycan Dünya İqtisadi Forumda iştiraka ölkədə həyata keçirilən iqtisadi islahatların yaratdığı yeni imkanları dünya ölkələrinə çatdırmaqla ölkəyə investisiyaların və texnologiyaların axınına zəmin yaratmaq imkanı kimi baxır. Dünyanın aparıcı iş adamları ilə birbaşa ünsiyyət, onlarda ölkə iqtisadiyyatına investisiya etmədinin daha artırılmasına çalışmaq və bunu müasir yanaşmalarla nümayiş etdirmək vacib bir imkandır və bu imkandan da Azərbaycan Prezidenti öz görüşləri və çıxışları zamanı istifadə etdi. Forum çərçivəsində Azərbaycanın tranzit imkanlarından bəhs edən dövlət başçısı bütün ölkələri Azərbaycanın bu imkanlarından yararlanmağa çağırması hər kəs tərəfindən maraqla qarşılandı.



Dünya İtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə Azərbaycan arasında əməkdaşlığın təməlinin qoyulması çox mühüm hadisədir və bu dövlət başçısının apardığı islahatların dünyanın gələcək hədəfləri ilə uzlaşdırılmasına xidmət edir. Əməkdaşlıq, həmçinin Azərbaycanın bu prosesə verə biləcəyi töhvələri artıracaq. Qlobal arxitekturanın yaradılmasında Azərbaycanın, Prezident İlham Əliyevin iştirakı xüsusi qürurvericidir!

***- Tahir müəllim, yanvarın 29-da Prezident İlham Əliyevin iştirakı ilə “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfrans keçirilib. Konfransın əhəmiyyəti barədə fikirlərinizi bilmək istərdik...***

- 2004- cü ildən etibarən Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən Regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları bütövlükdə ölkənin iqtisadi potensialının artırılmasında və əhalinin maddi rifah halının yaxşılaşmasında mühüm rol oynamışdır. Keçən 15 il ərzində 3 dövlət proqramının icrası nəticəsində Azərbaycan iqtisadiyyatı 3.3 dəfə artaraq dünya miqyasında rekord göstəriciyə imza artmışdır. İxracın 4.7 dəfə, valyuta ehtiyatlarımızın isə 24 dəfə artması və paralel olaraq iqtisadiyyata 250 milyard dollar investisiya qoyulması nəticəsində Azərbaycan güclü və regional iqtisadiyyat qurmağa nail olmuşdur. İqtisadiyyatın sürətlə böyüməsi ölkədə 2 milyondan çox yeni iş yerlərinin açılmasına şərait yaratmışdır ki, bu da öz növbəsində əhalinin maaşlarının 7 dəfə, pensiyaların isə 9 dəfə artmasına gətirib çıxarmışdır. Ölkənin bütün regionlarında infrastruktur layihələrinin həyata keçirilməsi iqtisadi və sosial həyat şərtlərini kəskin yaxşılaşdırmış və bütün sahələrin inkişafı üçün zəmin yaratmışdır.

Məhz bu proqramların icrası nəticəsində ölkəmizdə inkluziv inkişaf səviyyəsi artmış, regionlarda yaşayan insanlar üçün əsasən bərabər şərait yaradılmışdır. Bütün bunlarla yanaşı qarşıda duran müasir çağırışlar və həyata keçirilən iqtisadi islahatlar regionların sosial-iqtisadi inkişafının ardıcıl olaraq davam etdirilməsini, yeni layihələrin həyata keçirilməsini labüd edir. Ölkənin dayanıqlı və inkluziv inkişafına nail olmaq məqsədilə Prezident İlham Əliyev tərəfindən aparılan geniş islahatlar paketi regionların inkişafına da mühüm təsir edir və görülən uğurlu işlərin davam etdirilməsi qəbul edilən yeni 4-cü proqram regionların sosial-iqtisadi inkişafını sürətləndirməklə yanaşı bütövlükdə Azərbaycan iqtisadiyyatının daha sürətli inkişafının təmin edilməsi və əhalinin rifah halının daha da yaxşılaşması yönümündə hazırlanmış mühüm dövlət proqramıdır.

***- Sizcə, regionlarda emal sənayesinin və kənd təsərrüfatının inkişafı respublikamızın ixrac potensialının daha da artırılmasına nə dərəcədə təsir göstərəcək?***

- Regionlarda ciddi sənayeləşmə prosesi gedir. Sənaye parklarının yaradılmasının geniş vüsət alması və qeydiyyatdan keçən rezidentlərin sayının 67-yə çatması bu sahədə ixrac potensialını da ciddi artırmaqdadır. Ölkəmizdə sənayenin inkişafında yeni əlavə dəyərin yaradılması ilə müşayiət olunan yeni dövr başlayıb. Bu həm emal sənayesində, həm də yüngül və kimya sənayesində müşahidə olunur. Müasir texnologiyaların tətbiqi ilə qurulan yeni sənaye müəssisələri rahatlıqla xarici bazarlara məhsul sata bilirlər ki, bu hər növbəti ildə ölkəmizin sənaye məhsulları ixracının artımına səbəb olamaqdadır. Xarici ölkələrə təşkil olunan ixrac missiyaları, xarici ölkələrdə açılan ticarət evləri Azərbaycan məhsullarının ixracı üçün yeni imkanlar və yeni bazarlar yaratmaqdadır.

Kənd təsərrüfatı sahəsində məhsuldarlığın artması və bu sahədə innovasiyaların tətbiqi üçün geniş miqyaslı işlərə başlanılması kənd təsərrüfatı məhsullarının ixracının həcminin artmasına rəvac verməkdədir. Bu, digər tərəfdən idxalı əvəz etməklə ölkədən valyuta çıxmasının qarşısını alır. Kənd təsərrüfatı sahəsində böyük dövlət dəstəyi mexanizmlərinin tətbiqi insanlara bu sahəyə marağı artırmış və məhsul istehsalını rentabelli etmişdir. Ənənəvi bazarlarla yanaşı yeni bazarlara çıxış imkanı əldə edən ölkə fermerləri bir çıx kənd təsərrüfatı məhsulları ixracından xeyli gəlir əldə etməkdədirlər. Xarici bazarlarda yüksək keyfiyyətli və orqanik Azərbaycan məhsullarına olan tələbat ixrac potensialının xeyli böyük olduğunu deməyə əsas verir. Eyni zamanda, kənd təsərrüfatı sahəsində emal sənayesinin inkişafı yüksək əlavə dəyərli məhsullarının istehsal edilməsinə imkan yaratmaqdadır ki, bu da ixracın həcmini artırmaqla yanaşı yerli istehsalçılara daha çox mənfəət əldə etməyə imkan verəcəkdir.

## Bəhruz Quliyev: “Milli Şura” artıq tükənib”



“Milli Şura”nın sosial şəbəkələr və digər vasitələrlə Məhəmməd Əmin Rəsulzadənin doğum günü ilə bağlı keçirəcəyi “mitinqi”n bu gün iflasa uğraması onların yalnız söz “qəhrəmanları” olduğunu bir daha sübut etdi”.

Bu fikirləri “Səs” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib. O bildirib ki, müxalifətin radikal qrupu sosial şəbəkələrdə özlərini “lider” kimi apararaq sosial bazalarının olması və bunun vasitəsilə istədiklərinə nail ola biləcəkləri ilə bağlı mif formalaşdırır: “Amma nəticəyə gəldikdə ortada nimdaşlaşmış köhnə müxalifəti görürük. 90-cı illərin mitinq hissləri ilə yaşayan müxalifət inkişaf etməyə cəhd belə göstərmir”.

19 yanvarda “məhsul mitinqi”nə “on minlərlə” insan çıxardığını iddia edən müxalifətin nəticədə heç 3 min tərəfdarını çıxara bilmədiyini deyən ekspert söyləyib ki, bu fakt “Milli Şura”nın ucuz təbliğatını ortaya qoymuş oldu: “Əgər onlar həqiqətən də mitinqə söylədikləri qədər insan çıxarmışdılarsa, o zaman Məhəmməd Əmin Rəsulzadənin büstü önünə niyə adam toplaya bilmədilər? Neçə gündür sosial şəbəkələrdə müxtəlif vasitələrdən istifadə edərək “mitinq” keçirəcəyini elan edən “Milli Şura” nəticə etibarı ilə 200 adamı bir araya toplaya bilmədi. Böyük iddialarla çıxış edən müxalifət “liderciklləri” belə ora bir və ya iki tərəfdarı ilə gəlmişdi”.

B.Quliyev vurğulayıb ki, Azərbaycanın ümumxalq hüzn günündə Əli Kərimli sosial şəbəkələrdə Şəhidlər Xiyabanına minlərlə adam topladığını bildirsə də, fakt ortada idi: “Ora gələn 5-10 nəfərin məqsədi də yalnız asayişi pozmaq istəyi idi ki, bunun da qarşısı Azərbaycanın hüquq mühafizə orqanları tərəfindən alındı”.

Ekspert əlavə edib ki, radikal müxalifət hələ də köhnə davranışından əl çəkməyib: “Bu köhnəlik onları 90-cı illərin əvvəllərində saxlayıb. Artıq müasir dünyada yaşayırıq, Azərbaycan inkişaf edir, vətəndaşlarımızın siyasi şüuru kifayət qədər yetkinləşib, insanların qəlbində qurmaq, yaratmaq, dünyanın yeni çağırışlarına qoşulmaq istəyi var. Amma təəssüf ki, müxalifət nə dəyişib, nə də inkişaf edib, hələ də mitinq keçirmək arzusu ilə yaşayır”.

***Nailə Məhərrəmova***

## “Atılan addımlar şəhidlərimizlə bağlı dərin ehtiramın göstəricisidir”



“Prezident İlham Əliyevin şəhid ailələri ilə görüşü, birdəfəlik yardımla bağlı fərmanı və təqaüdlərinin artırılması haqqında sərəncamı torpaqlarımız uğrunda canlarını qurban vermiş şəhidlərimizlə bağlı dərin ehtiramının göstəricisidir”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü, deputat Sevinc Hüseynova deyib. Cənab Prezidentin yanvarın 28-də imzaladığı Fərmanla birdəfəlik ödəmənin əhatə dairəsi daha da genişləndiyini dilə gətirən deputat söyləyib ki, yeni fərmana əsasən, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 1997-ci ilin avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 şəhid vərəsəsi birdəfəlik ödəmədən yararlanacaq. Onun sözlərinə görə, yeni fərmanla birdəfəlik ödəmənin verilməsi prosesi artıq 12268 şəhidin vərəsələrini əhatə edir və bu məqsədlər üçün ümumilikdə 135 milyon manat vəsait nəzərdə tutulur ki, bu da Ölkə başçısının şəhid ailələrinə böyük diqqət və qayğısının növbəti təcəssümüdür.

Ölkə başçısının bir qrup şəhid ailəsi ilə görüşü zamanı Prezident İlham Əliyevin “bizim üçün ölkəmizin ərazi bütövlüyünün bərpası ən vacib məsələdir” fikrini xatırladan S.Hüseynova vurğulayıb ki, dövlətimizdə torpaq uğrunda şəhid olan qəhrəmanlarımız hər zaman hörmətlə anılır, onların ailələri diqqət mərkəzində saxlanılır: “Son günlər həssas təbəqə olan şəhid ailələri ilə bağlı atılan bütün addımlar humanistliyin göstəricisi ilə yanaşı, şəhidlərimizin ailələrinə göstərilən çox böyük diqqət və qayğının dövlət səviyyəsində daha bir ifadəsidir”.

# Prezident İlham Əliyevin şəhid ailələrinə diqqət və qayğısı davamlı xarakter alıb

***Azərbaycan Prezidenti İlham Əliyevin əhalinin sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi, digər sosial qruplar kimi, əlillərin və şəhid ailələrinin də həyat şəraitinin yaxşılaşmasına, onların ictimai hüquqlarının bərpa olunmasına şərait yaradıb. Bunu ilə bağlı ölkə ictimaiyyəti, eləcə də, tanınmış ictimai-siyasi xadimlər və millət vəkilləri fikirlərini bizimlə bölüşməkdə davam edirlər.***

## Millət vəkili Tahir Süleymanov: "Prezident İlham Əliyevin imzaladığı Fərman çoxsaylı ailələrə böyük sevinc bəxş edib"



"Azərbaycanın ərazi bütövlüyü uğrunda öz canından keçmiş şəhid ailələrinə, həmçinin, müharibə əlillərinə dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir". Bu fikirləri "Səs" qəzetinə açıqlamasında millət vəkili Tahir Süleymanov, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında" imzaladığı Fərmanı şərh edərkən deyib.

Deputat bildirib ki, Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı cəmiyyətimizin bütün təbəqələri, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Belə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərindən birini müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması təşkil edir.

"Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan Fərman və sərəncamlar çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir" deyə vurğulayan Tahir Süleymanov əlavə edib ki, müharibə əlilləri, veteranları və şəhid ailələrinə göstərilən qayğı nümunəvi xarakter daşıyır: "Müharibə əlilləri, veteranları və şəhid ailələrinin sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin, Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da çox müsbət haldır. Bu siyasət davamlı xarakter daşıyır."

Millət vəkili belə bir nümunənin digər ölkələrdə olmadığını da xatırladaraq, ümumilikdə, müasir və müstəqil Azərbaycan dövlətinin atdığı sözügedən addımlarının dünyaya yeni model olaraq təqdim edildiyini vurğulayıb: "Söz yox ki, bu model həm də Prezident İlham Əliyevin yürütdüyü uğurlu sosial siyasətin məntiqi nəticəsidir. Çünki o, bütün çıxışlarında Azərbaycan dövlətinin əsas siyasi istiqamətlərindən birinin, məhz sosial siyasət olduğunu qeyd edir və bu reallıq özünü davamlı şəkildə isbatlayır. Hesab edirəm ki, şəhid ailələrinin hər birinə şamil edilən birdəfəlik təqaüdün, habelə, əlavə 35 milyon manatın ayrılması, eləcə də, sonuncu Fərman bizlərin hər birində qürur və fərəh hissləri yaradır".

## YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva: "Bu, ölkəmizdə şəhid ailələri də daxil olmaqla, vətəndaşların sosial rifahının daim diqqət mərkəzində olduğunun göstəricisidir"

"Ölkəmizin başçısı İlham Əliyevin şəhid ailələrinə göstərdiyi qayığısının bariz nümunəsi Onun imzaladığı Sərəncam və fərmanlarında kifayət qədər əks olunub və bu reallıq, sözü yox ki, hər bir azərbaycanlını sevindirir". Bu fikirləri isə, Yeni Azərbaycan Partiyasının Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva qeyd edib. "Torpaqlarımız uğrunda canlarından keçmiş oğul və qızlarımızın hər birinin ailələri bu diqqətə layiqdirlər" deyə qeyd edən M.Abasquliyeva, həmçinin, bildirib



ki, Prezident İlham Əliyev şəhid ailələrinə, şəhidlərimizin varislərinə, davamlı olaraq, öz tükənməz qayğılarını göstərir və bu örnək addımlar, əlbəttə ki, hər birimizi sevindirir: "Təkcə, Cənab İlham Əliyevin Prezident Administrasiyasında şəhidlərimiz ailələri ilə keçirdiyi görüşü xatırlasaq, biz Onun nə qədər böyük ürəyə malik olduğunu vurğulaya bilərik. Yeni bu görüşün özü də, bir daha göstərdi ki, Prezident İlham Əliyev şəhid ailələrinə nə qədər böyük qayğı, hörmət və ehtiram göstərir."

YAP Sabunçu rayon təşkilatının sədri eyni zamanda, bildirib ki, Prezident İlham Əliyevin diqqəti daim şəhid ailələrinin, müharibə veteranlarının və onların ailələrinin üzərində olub: "Hər şeydən öncə, məhz xalqımızın qürur yeri olan bu ailələrin problemlərinin həlli əsas sosial prioritet kimi müəyyənləşdirilib. Təsadüfi deyil ki, bu vaxta qədər belə vətəndaşlara 6654 mənzil, 6144 avtomobil, o cümlədən, ötən il isə 626 mənzil verilib. Bu il həmin vətəndaşlara, azı 800 mənzilin təqdim olunması nəzərdə tutulur. Şəhid ailələrinə və müharibə əlillərinə, milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə, mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub."

## YAP Səbail rayon təşkilatının sədrinin birinci müavini Muxtar Nağıyev: "Qayğıya ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənirlər"

"Bu gün bütün dünya şahididir ki, müasir, müstəqil Azərbaycan sosial dövlətdir və aparılan siyasətin əsas tərkib hissəsində xalqın sosial təminatı dayanmaqdadır". Bu fikirləri Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədrinin birinci müavini Muxtar Nağıyev mövzuya münasibətini açıqlayarkən deyib.



Onun sözlərinə görə, Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşı dayanır: "Dövlət başçısının müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq, reallaşdırılan məqsədyönlü dövlət siyasəti ona istiqamətləndirilib ki, ölkənin dinamik iqtisadi inkişafından əhalinin bütün təbəqələri, əlalxüsus da xüsusi qayğıya ehtiyacı olan insanlar bəhrələnə bilsinlər."

M.Nağıyev, həmçinin, bildirib ki, Azərbaycanda istər hərbi qulluqçuların, istər şəhid ailələrinin və müharibə əlillərinin etibarlı sosial müdafiəsinin təmin edilməsi baxımından dövlət başçısı tərəfindən imzalanan Fərman və sərəncamlar vurğulanan faktların hər birində kifayət qədər ehtiva olunmaqdadır: "Son illərdə Prezident İlham Əliyevin məqsədyönlü siyasətinə uyğun olaraq, hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılması ölkənin müdafiə potensialının gücləndirilməsi ilə yanaşı, Silahlı Qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsinə, mənzil-məişət problemlərinin həll olunmasına, onlara verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsinə daha geniş şərait yaradıb. Dövlət başçısının əlavə 35 milyon manat ayırması, eləcə də, digər qərarları deyilənləri sübut edir."

## YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov: "Şəhid ailələrinin problemlərinin aradan qaldırılması üçün, mütəmadi olaraq, tədbirlər həyata keçirilir"

"Azərbaycan Respublikasının müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə dövlət başçısı İlham Əliyev tərəfindən hər zaman xüsusi diqqət və qayğı göstərilir, onların problemlərinin aradan qaldırılması üçün, tədbirlər həyata keçirilir". Bu sözləri Yeni Azərbaycan Partiyasının Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov bildirib. Onun sözlərinə görə, ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılır: "Ötən dövrdə bu kateqoriyalardan olan vətəndaşlara 6654 mənzil, o cümlədən, 2018-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla, 626 mənzil verilib. 2019-cu ildə isə həmin vətəndaşlara, azı 800 mənzilin təqdim olunması nəzərdə tutulur".



YAP Şabran rayon təşkilatının sədri, həmçinin, qeyd edib ki, Prezident İlham Əliyev Cənablarının mühüm sosial əhəmiyyət kəsb edən və şəhid ailələrinə böyük diqqət və qayğının növbəti təcəssümü olan Fərman və sərəncamları birdəfəlik ödəmə veriləcək şəhid ailələrinin əhatə dairəsini daha da genişləndirib, habelə, təqaüdlərin artırılması, eləcə də, əlavə 35 milyon manatın ayrılması qeyd edilən fikirlərdə öz təsdiqini tapmaqdadır: "Dövlət başçısının növbəti humanist təşəbbüsü ilə əlavə olaraq 2264 şəhid hərbi qulluqçu və 461 şəhid polisimizin vərəsələrinə də birdəfəlik ödəmə veriləcək. Yeni Fərmanla birdəfəlik ödəmələr, artıq 12 268 şəhidin vərəsələrini əhatə edir və ödəniləcək vəsaitin həcmi 135 milyon manata çatır".

Mehdi Balabəyov, onu da, qeyd edib ki, Azərbaycan Respublikasının müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə dövlətimizin rəhbərliyi tərəfindən xüsusi diqqət və qayğı göstərilməsi bundan sonra da davam etdiriləcək: "Belə ki, onların mövcud problemlərinin aradan qaldırılması üçün, mütəmadi olaraq, tədbirlər həyata keçirilir və hər bir azərbaycanlı, ölkə vətəndaşı bu addımlardan qürur, fərəh hissləri keçirir."

***Rəfiqə KAMALQIZI,***
***Rövşən NURƏDDİNOĞLU***

## Zarui Postancyan: "Ermənistanda diktatorluq davam edir"



Meger Yegizaryanın ölümündə əsas təqsirkar ədliyyə naziri Artak Zeynalyandır. SİA xəbər verir ki, bu fikirləri news.am saytına müxalifətçi partiya sədri Zarui Postancyan deyib. Onun sözlərinə görə, ədliyyə nazirliyi özlərini siyasi məhbus hesab edən insanların siyahısını saxlamalı və bu məsələyə xüsusi yanaşma, davranışlarına xüsusi nəzarət etməlidir. "Ziddiyyətlər ondadır ki, Artak Zeynalyan öz növbəsində islah-əmək müəssisələrində siyasi məhbusların olmadığını, yalnız özlərini siyasi məhbus hesab edənlərin olduğunu bəyan etmişdi", deyə xatırladan partiya sədri açlıq elan edən insanların diqqət mərkəzində saxlanılmalı olduğunu da bildirib.

Postancyan vurğulayıb ki, bu hadisə, eləcə də Avropa məhkəməsi tərəfindən Samvel Mayrapetyannın hüquqlarının pozulması barədə qərarı Ermənistanda diktator hakimiyyətinin davam etdirildiyini göstərir. Erməni müxalifətçi əlavə edib ki, rəhbərlik etdiyi siyasi partiyası ölkədəki diktatorluğu məhv etmək üzərində işləyir, lakin bunun üçün həm də şəbəkəli mübarizənin vacib olduğunu deyib. Zarui Postancyan Nikol Paşinyanın "Mənim addımım" blokunun siyasi xəttinin Ermənistanın Respublika partiyasının siyasətindən heç nə ilə fərqlənmədiyini bildirib.

## "Almaniyanın Cənubi Qafqazla ticarət dövriyyəsinin 70 faizi Azərbaycanın payına düşür"

Bakıda keçirilən Azərbaycan - Almaniya yüksək səviyyəli İşçi Qrupunun 8-ci iclasında çıxış edən iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov Azərbaycan və Almaniya arasında iqtisadi əlaqələrin hazırkı vəziyyəti, sonuncu iclasdan sonrakı dövrdə görülmüş işlər, qarşıdakı dövrdə iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi istiqamətində görüləcək işlərdən danışıb: "Ölkələrimiz arasında ticarət əlaqələri yüksələn xətlə inkişaf edir. Ötən il avqust ayında Almaniya kansleri Angela Merkelin Azərbaycana səfəri iqtisadi inkişaf üçün impuls rolunu oynadı. Bu səfərdən sonra Azərbaycan məhsullarının Almaniyaya ixrac edilməsi ilə bağlı danışıqlar aparılıb. 2018-ci ildə Azərbaycanla Almaniya arasında ticarət dövriyyəsi 61 faiz artıb. Həm Azərbaycandan Almaniyaya ixrac, həmçinin Almaniyadan Azərbaycana idxal olunan malların faizində artım müşahidə edilir. Almaniyanın Cənubi Qafqazla ticarət dövriyyəsinin 70 faizi Azərbaycanın payına düşür".

Qeyd edək ki, İşçi Qrupun iclasları növbəlilik prinsipi ilə - bir il Almaniya, bir il isə Bakıda keçirilir. Sonuncu iclas 2017-ci noyabr ayında Berlində baş tutub.

***İnam Hacıyev***

# Natiq Əmirov: “Davos görüşləri dünyanın Azərbaycana və Prezident İlham Əliyevin siyasətinə artan marağından xəbər verir”

***Azərbaycan Respublikası Prezidentinin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov bu günlərdə Davosda keçirilmiş Dünya İqtisadi Forumunun əhəmiyyəti, onun Azərbaycan üçün faydaları, Prezident İlham Əliyevin forum çərçivəsində keçirdiyi çoxsaylı görüşlər barədə Azərbaycan televiziyasının “Həftə” proqramına müsahibə verib. AZƏRTAC müsahibənin mətnini təqdim edir.***




*- Natiq müəllim, ötən həftənin ən mühüm hadisəsi Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına səfəri, səfər çərçivəsində keçirilən görüşlər oldu. Biz, ümumiyyətlə, bu görüşlərin əhəmiyyətinə ayrıca toxunacağıq. Amma istərdik ki, əvvəlcə budəfəki illik toplantının əhəmiyyəti, Azərbaycan üçün verdiyi və ya verəcəyi dividentlər barədə Sizin fikirlərinizi eşidək. Çünki bu Forum yalnız iqtisadi önəm kəsb etmir. Burada siyasi məsələlər, sosial, hətta ətraf mühit məsələləri müzakirə olunur. Ümumiyyətlə, illik toplantı Azərbaycan üçün nə ilə yadda qaldı və hansı dividentlərdən xəbər verir?*

- Doğrudan da, ötən həftənin ən mühüm hadisəsi Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun Davos şəhərində keçirilən illik toplantısında iştirakı oldu. Bildiyiniz kimi, əsası Klaus Şvab tərəfindən 1971-ci ildə qoyulmuş Davos İqtisadi Forumu 1973-cü ilədək əsasən iqtisadi məsələlərin müzakirə olunduğu platforma kimi fəaliyyət göstərib. Bu il 49-cu dəfə keçirilən Dünya İqtisadi Forumuna 1973-cü ildən bəri siyasətçilərin də qoşulması ilə onun mahiyyəti və əhatə dairəsi əhəmiyyətli dərəcədə genişlənib. Hər il dünyanın 70-dən çox dövlət və hökumət başçısının, 150-dən çox dövlətin nümayəndəsinin, 1000-dən çox dünya əhəmiyyətli şirkətin, 3000-dən çox insanın iştirak etdiyi bu Forum dünyada qlobal miqyasda siyasi, iqtisadi, ətraf mühit, gender və dünyanın gələcək inkişafını müəyyənləşdirən bütün digər istiqamətlər üzrə sərbəst və inklüziv müzakirələri təşkil edən ən böyük platformadır. Əlbəttə, dövlətimizin başçısının bu forumda iştirakı Azərbaycanın həm regional miqyasda, həm də dünya miqyasında artan rolunun və Prezident İlham Əliyevin şəxsinə yetirilən diqqətin bariz nümunəsidir. Prezidentimizin Forum çərçivəsində keçirdiyi görüşlər, orada səslənən fikirlər bunu deməyə əsas verir.

*- Forumla bağlı bir çox mühüm məqamlar diqqəti cəlb edir. 49-cu Davos Dünya İqtisadi Forumunda müzakirə olunan əsas məsələlərdən biri, bəlkə də birincisi dollar ifadəsində dünyanın ən böyük layihəsi sayılan “Bir kəmər, bir yol” təşəbbüsü ilə bağlı sessiya idi. Dünyanın 70-ə yaxın ölkəsinin dövlət və hökumət başçılarından məhz Prezident İlham Əliyev həmin sessiyada iştirak ilə bağlı dəvət alır və ilk söz də Prezidentimizə verilir. Bu faktın özü nəyi deməyə əsas verir və hansı nüanslar bu reallığı ortaya qoyur?*

- Maraqlı sualdır. Bu sualın cavabına keçməzdən əvvəl bildirim ki, Davos İqtisadi Forumu iki əsas istiqamətlə fərqlənir. Birincisi, bu iqtisadi forum müstəqil platformadır. O, dünya trendlərini - həm siyasətdə, həm iqtisadiyyatda, həm də digər sahələrdə dünya trendlərini müəyyənləşdirən inklüziv bir platforma olmaqla yanaşı, ikitərəfli görüşlərin keçirilməsi, ən yaxşı təcrübənin paylaşılması və gələcək inkişaf üçün hər kəsin baxışlarını əks etdirən müzakirələrin aparılması üçün çox münbit şərait yaradır.

Davos İqtisadi Forumunun hər il əsas mövzusu olur. Bu il Forumun əsas mövzusu “Qloballaşma 4.0: Dördüncü sənaye inqilabı dövründə qlobal arxitekturanın formalaşması” idi. Keçirilən çoxsaylı görüşlərdə əsas mövzu məhz qloballaşma - dördüncü sənaye inqilabı şəraitində ölkələrin öz gələcəklərini müəyyənləşdirməsi üçün həm iqtisadi, həm siyasi, ətraf mühit və digər məsələləri özündə ehtiva edən bir siyasətin formalaşmasını təşkil etmək oldu.

Bir arayış təqdim edim: Prezidentin builki Davos səfəri onun ümumi say etibarı ilə 13-cü səfəri idi və bu 13 il ərzində Prezident İlham Əliyev 202 görüş keçirib (bu görüşlərin 55-i bilavasitə dövlət və hökumət başçıları ilə olub), 28 sessiyada iştirak edib, müxtəlif kütləvi informasiya vasitələrinə 9 dəfə müsahibə verib. Davosa builki səfəri çərçivəsində Azərbaycan Prezidenti 3-ü dövlət və hökumət başçıları ilə olmaqla, 19 görüş keçirib, Rusiyanın “Rossiya 1” və Çinin “China Global Television Network” telekanallarına müsahibələr verib, həmçinin “Bir kəmər, bir yol” təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı” adlı sessiyada iştirak edib. Bu sessiya, demək olar, Davos İqtisadi Forumunun ən mühüm sessiyalarından biri idi. Çünki bu təşəbbüs dünyanın ümumi daxili məhsulunun 30 faizini, dünya əhalisinin 62 faizini təşkil edən bir coğrafiyanın Çin ilə siyasi-iqtisadi və maliyyə əlaqələrinin genişləndirilməsini nəzərdə tutur. Bildiyiniz kimi, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan “Bir kəmər, bir yol” layihəsinə ən çox töhfə verən dövlətlərdən biridir. Qeyd edim ki, “Bir kəmər, bir yol” layihəsində “bir kəmər” dedikdə, Çindən dünyanın müxtəlif istiqamətlərinə gedən quru yolu nəzərdə tutulur və Azərbaycan da həmin yolun üzərində yerləşir. “Bir yol” isə Çini müxtəlif dövlətlərlə birləşdirən dəniz yollarını nəzərdə tutur. Azərbaycan Prezidentinin bu sessiyaya dəvət olunması və ilk sözün ona verilməsi təsadüfi deyildi. Çünki Azərbaycan azsaylı ölkələrdəndir ki, öz maliyyə gücü ilə infrastruktura əhəmiyyətli investisiyalar yatırmaqla, qitələrin birləşdirilməsində çox mühüm rol oynayır.

*- Natiq müəllim, suallarımız kifayət qədər çoxdur, çünki Davosda çox önəmli görüşlər keçirildi, mühüm məsələlər müzakirə edildi. Ən əsası Azərbaycan növbəti dəfə qlobal platformada konkret layihələrlə təqdim olundu. Siz çox önəmli məqamlara toxundunuz ki, məhz bu layihələrin mövcudluğu supergüclərdə və önəmli təşkilatlarda bir dövlət kimi Azərbaycana maraq yaradır. Elə dövlətimizin başçısının keçirdiyi görüşlərdən biri də Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə oldu və həmin görüş əsnasında Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə Azərbaycan arasında ilk dəfə olaraq əməkdaşlığın təməli qoyuldu. Ümumiyyətlə, Dördüncü Sənaye İnqilabı nədir? İstərdik bunun mahiyyətinə varaq. Dövlətimizin başçısının iştirakı ilə keçirilən bu görüşdə səslənən fikirlər, eləcə də bu sənaye inqilabının qarşıya qoyduğu əsas hədəflər nədən ibarətdir? Bu görüş Azərbaycana nə kimi dividentlər vəd edir?*

- Bəli, xüsusilə Şərq-Qərb nəqliyyat dəhlizi üzərində yerləşən Ələt qəsəbəsində Xəzər dənizinin ən böyük limanının tikintisi, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası, eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizi üzərində infrastrukturun yaradılması və bütün bu infrastruktur layihələrinin Azərbaycan Prezidentinin bilavasitə təşəbbüsü ilə, eyni zamanda, Azərbaycanın maliyyə vəsaitləri hesabına formalaşması, təbii ki, dünyanın diqqətini çəkən amillərdən idi. İlk baxışda kiçik görünən bu layihə Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində dünyanın nəhəng ölkələrini və maliyyə institutlarını bu layihənin ətrafında birləşdirməyə imkan verdi. Yəni, əslində Azərbaycan kiçik bir ölkə olsa da, dövlətimizin başçısının səyləri bunu bizim üçün bir fürsətə, imkana çevirdi ki, nəticədə, böyük ölkələr bu nəqliyyat habının ətrafında birləşməklə “Bir kəmər, bir yol” layihəsinə, eyni zamanda, Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafına öz töhfələrini verdilər.

*- Ümumiyyətlə, müasir texnologiyalardan ən çox inkişaf etmiş ölkələr yararlanır. Ən yeni nanotexnologiyaları iqtisadiyyata iqtisadi baxımdan özünü doğrultmuş və büdcəsi buna imkan verən ölkələr cəlb edirlər. Hər ölkənin qarşıya qoyulan hədəfləri var. Siz də qeyd etdiniz - beşinci sənaye inqilabı, altıncı sənaye inqilabı - hər birinin öz hədəfləri var. Qarşıya qoyulan konkret tələblər var və hansı ölkə bu tələblərə cavab vermirsə, o zaman əlbəttə ki, həmin ölkə ilə danışıqlar aparılmır. Deməli, bu, artıq beynəlxalq miqyasda Azərbaycan iqtisadiyyatının inkişafına verilən dəstək və eləcə də bu inkişafın etiraf olunmasıdır. “Doing Business” hesabatında da Azərbaycan 32 pillə irəliləyərək 57-ci yerdən 25-ci yerə yüksəldi. Elə bu faktın özü də ölkəmizə olan marağı ifadə edir.*

# Natiq Əmirov: “Davos görüşləri dünyanın Azərbaycana və Prezident İlham Əliyevin siyasətinə artan marağından xəbər verir”

- Tamamilə doğrudur. Azərbaycan Prezidenti Davos İqtisadi Forumundakı çıxışlarında da bunu qeyd edib. Mən bir faktı da deyim ki, Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə əməkdaşlıq etmək istəyən ölkələrin coğrafiyası həddindən artıq genişdir və hər bir ölkə San-Fransisko şəhərində öz təqdimatını, bu məsələlərə öz baxışını və dövlətin bu sahədə apardığı siyasəti təqdim edirdi. Bizim ölkəmizin də orada təqdimatı keçirildi. Bütövlükdə, dövlətimizin başçısı tərəfindən həyata keçirilən islahatlar həmin təqdimatın iştirakçıları tərəfindən çox yüksək dəyərləndirildi. Biz cənab İlham Əliyevin prezident olduğu son 15 ilə diqqət yetirsək, istənilən dövrdən 3 il, 5 il əvvəllə müqayisə aparsaq, hər 3-5 ildə çox əhəmiyyətli irəliləyişlərin baş verdiyinin şahidi olarıq. Prezident İlham Əliyevin həyata keçirdiyi davamlı islahatlar, innovativ və digər həllər istiqamətində atdığı addımlar Azərbaycanın inkişafını, sözsüz ki, həm dayanıqlı, həm də davamlı edir. Bu da qeyd etdiyiniz kimi, təbii ki, “Doing Business” hesabatında da öz əksini tapır. Bu məsələ dövlətimizin başçısının ikitərəfli görüşlərində xüsusilə vurğulanırdı. “Doing Business” hesabatında Azərbaycanın birdən-birə 32 pillə irəliləyərək 25-ci yerə çıxması iştirakçıların, demək olar, hamısı tərəfindən çox yüksək dəyərləndirilirdi. Dünya Bankı Qrupunun baş icraçı direktoru xanım Kristalina Georgiyeva cənab Prezidentlə görüşdə belə bir sıçrayışın “Doing Business” hesabatı tarixində bir ilk olduğunu söylədi. Burada bir haşiyəni qeyd edim. Azərbaycanın dövlət və hökumət qurumları “Doing Business” hesabatı ilə daim məşğul olurlar. Keçən il Prezident İlham Əliyev şəxsən özü “Doing Business” hesabatının metodologiyasına qədər maraqlandı, toplantılar keçirdi. Bildiyiniz kimi, Baş nazirin birinci müavini Yaqub Eyyubovun rəhbərliyi ilə xüsusi komissiya yaradıldı və müxtəlif qurumların 116 nümayəndəsi sistemli olaraq dövlətimizin başçısının tövsiyələri əsasında bu hesabat üzrə Azərbaycanın atmalı olduğu addımlar, eyni zamanda, həyata keçirməli olduğu islahatlar üzərində işləməyə başladı. Cənab Prezident o zaman qeyd edirdi ki, əgər biz hər hansı bir istiqamətdə irəli getmək istəyiriksə, bizim aydın baxışımız olmalıdır, proqramımız olmalıdır və onu həyata keçirəcək komandamız olmalıdır. Məhz dövlət başçısının bilavasitə iştirakı ilə, prosesi artıq özünün göstərdiyi istiqamətdə davam etdirməsi ilə, səmimi desəm, Azərbaycan bizim də gözləmədiyimiz bir səviyyədə irəliyə doğru mühüm addımlar atdı. Bu, görüşlərdə iştirakçıların hamısı tərəfindən qeyd olunurdu. Bu nəticələr Azərbaycana diqqət və marağı artırmaqda, eyni zamanda, investisiyalar gətirməkdə davam edir.

Ümumiyyətlə, qeyd edim ki, builki Davos Forumu daha çox texnologiyaların - dördüncü sənaye inqilabına aid olan texnologiyaların önə çıxması ilə əvvəlki illərdən fərqlənirdi. Siz tamamilə doğru dediniz ki, Prezident İlham Əliyevin Borge Brende ilə görüşündə Azərbaycanla Dünya İqtisadi Forumu arasında əməkdaşlıq sazişinin mübadiləsi baş verib. Azərbaycan Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə əməkdaşlıq sazişi imzalamaqla iqamətgahı San-Fransisko şəhərində yerləşən bu qurumun rəsmi tərəfdaşına çevrilib. Məlumat üçün bildirim ki, bu günə qədər Dördüncü Sənaye İnqilabının rəsmi tərəfdaşları qismində Yaponiya, Amerika Birləşmiş Ştatları, Çin və Hindistan kimi nəhəng ölkələr çıxış edirdilər. Odur ki, sual yarana bilər: bu nəhəng ölkələrdən sonra əhalisinin sayına, ərazisinə görə nisbətən kiçik olan ölkələrlə belə bir müqavilənin bağlanması və məhz Azərbaycanın seçilməsi nə ilə əlaqədardır? Qeyd etməliyəm ki, ilk növbədə, Azərbaycan ümumi daxili məhsulda sənayenin payına görə dünyada lider ölkələrdəndir. Yəni, dünyada çox az sayda ölkələr var ki, ümumi daxili məhsulda sənayenin payı Azərbaycandakı qədər yüksək olsun. Eyni zamanda, biz “Qlobal Rəqabətlilik Hesabatı”nda texnologiyaların insanlara əlçatanlığına, vətəndaşların rəqəmsal həllərdə iştirakına görə dünyada 15-ci yerdəyik. Azərbaycanın dövlət başçısının son illərdə xüsusilə informasiya texnologiyaları, innovativ həllər, rəqəmsal iqtisadiyyat sahəsində qərarları, fərmanları və real iqtisadiyyatda atılan addımlar, son illərdə aparılan islahatlar, təbii ki, Davos Dünya İqtisadi Forumunun, o cümlədən Dördüncü Sənaye İnqilabı Mərkəzinin də diqqətindən qaçmayıb.

Bilirsiniz ki, Azərbaycanda “Azexport.az”, Rəqəmsal Ticarət Qovşağı və digər bu kimi həllər mövcuddur və onlar Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə çox sıx əməkdaşlıq edirlər. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təşkilatçılığı ilə nümayəndə heyəti San-Fransisko şəhərində Azərbaycanın rəqəmsal imkanları, Dördüncü Sənaye İnqilabına verə biləcəyi töhfələr və Azərbaycanın Dördüncü Sənaye İnqilabı Mərkəzi ilə əməkdaşlıq imkanlarına dair təqdimat keçirərkən bütün bu məsələlər qiymətləndirilib, tərəfdaş kimi məhz Azərbaycan Respublikası seçilib. Dördüncü Sənaye İnqilabı artıq rəqəmsal iqtisadiyyata doğru atılan ən böyük addımdır. Davosda artıq Beşinci Sənaye İnqilabının ilk sədaları, ilkin istiqamətləri səslənir, bununla bağlı çox mühüm təqdimatlar keçirilirdi. Davosun builki formatının daha çox texnoloji istiqamətə yönəlməsi dövlətimizin başçısının görüşlərində və cənab Prezidentin şəxsinə olan maraqda da özünü bilavasitə əks etdirirdi.

***- Azərbaycan Prezidenti çox önəmli şirkətlərin rəhbərləri, icraçı direktorları ilə görüşdü. Bu görüşlərə, məsələn, “VISA”, “CISCO” rəhbərləri ilə görüşlər aiddir. Həmin şirkətlərin qlobal miqyasda nüfuzu barədə nə demək olar? Bu şirkətlərlə əməkdaşlıq hansı perspektivlər vəd edir? Xüsusən nəzərə almaq lazımdır ki, həmin şirkətlərin rəhbərləri məhz özləri Azərbaycan Prezidenti ilə görüşə can atırdılar, bu görüşlər onların təşəbbüsü ilə keçirilirdi.***

- Qeyd edim ki, təkcə həmin şirkət rəhbərləri ilə görüşlər deyil, ümumiyyətlə Davos şəhərində cənab Prezidentin keçirdiyi bütün görüşlər qarşı tərəflərin təşəbbüsü və müraciəti əsasında təşkil edilirdi. Davosda dövlətimizin başçısını müşayiət edən bir heyət üzvü kimi bizim qarşımızda duran ən böyük çətinlik cənab Prezidentin vaxt qrafikinin məhdud olması səbəbindən dünyada çox böyük hörmət, nüfuz sahibi olan şirkətlərə, siyasətçilərə “yox” demək idi. Yəni, həqiqətən onlara “cənab Prezidentin qrafiki məhduddur, sizinlə görüşmək imkanı yoxdur” demək bizim üçün olduqca çətin idi. Bəlkə də Azərbaycan nümayəndə heyəti yeganə nümayəndə heyəti idi ki, səhər saat 7-də bizim Prezidentin birinci görüşü olurdu. İştirakçılar səhər saat 7-də çatdıra bilmədiklərini deyəndə biz düşünürdük ki, cənab Prezident onlara iş qrafikinin gərginliyi ilə əlaqədar bir şərh, açıqlama verir. Amma o deyirdi ki, “bizim vətənimizdə saat 10-dur və bizim üçün normal iş vaxtıdır. Kim bizimlə görüşmək istəyirsə, bu vaxt gəlməlidir”. Həqiqətən də Prezident İlham Əliyevlə görüşmək, onunla müzakirə aparmaq istəyən həm rəsmi dövlət nümayəndələrinin, həm də qlobal şirkət rəhbərlərinin sayı həddindən artıq çox idi və dövlətimizin başçısı vaxt məhdudiyyəti səbəbindən onların bəziləri ilə görüşə bilmədi.

Ümumilikdə, Davos görüşləri bu il əsasən iki istiqaməti əhatə edirdi. Birincisi, bilirsiniz ki, bizim ənənəvi neft sənayemiz, bu sahədə ənənəvi tərəfdaşlarımız var. Cənab Prezident də onların müraciəti əsasında, həm “BP” şirkətinin rəhbəri Robert Dadli, həm “Lukoil” şirkətinin prezidenti Vahid Ələkbərov, həm “Total” şirkətinin rəhbəri, həm də keçmiş “Statoil” şirkətinin rəhbəri ilə - indi həmin şirkət “Equinor” adlanır - görüşlər keçirdi. Bu görüşlərdə Azərbaycanın neft strategiyası, Azərbaycanın yaxın gələcəkdə bu sahədə atacağı addımlar, bütövlükdə dünyada neft sənayesinin mövcud vəziyyəti və burdan irəli gələn məsələlər bizim ənənəvi tərəfdaşlarımızla müzakirə olunurdu. Dövlətimizin başçısının görüşləri sırasında qeyri-neft sektorunu təmsil edən şirkətlərin, xüsusən texnoloji şirkətlərin nümayəndələri ilə görüşləri xüsusi qeyd etmək lazımdır. İkinci istiqamət Prezident İlham Əliyevin keçirdiyi siyasi əhəmiyyətli görüşləri idi ki, bu sırada Borge Brende, eyni zamanda, İsveçrə Konfederasiyasının Prezidenti Ueli Maurer, Gürcüstanın Baş naziri Baxtadze və Ermənistanın Baş naziri ilə olan görüşləri qeyd edə bilərik.

Borge Brende ilə görüşü xüsusi vurğulamaq istərdim. Bu görüş əsas etibarilə regional iqtisadi siyasət və regionun ətrafında olan yaxın qonşuların iqtisadi münasibətləri, habelə siyasi münasibətləri ilə bağlı cənab Prezidentin baxışlarını və mövqeyini öyrənmək, eyni zamanda, tövsiyələrini eşitmək məqsədi daşıyırdı. Borge açıq-aydın vurğulayırdı ki, Azərbaycan son 10-15 ildə apardığı siyasət və islahatlar hesabına bölgənin tanınmış söz sahibinə, nüfuzlu dövlətə çevrilib. Artıq bu coğrafiyada Azərbaycanla müzakirə olunmadan, Azərbaycanın fikri, mövqeyi nəzərə alınmadan, demək olar ki, heç bir böyük iqtisadi layihə həyata keçirmək mümkün deyil. Borge Brende Orta Asiyanın və Çinin Avropa ilə birləşdirilməsini təmin edən nəhəng infrastruktur layihələrinin - buraya Ələt Dəniz Limanı, eləcə də Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP qaz boru kəmərlərini özündə birləşdirən “Cənub Qaz Dəhlizi” layihəsi, Bakı-Tbilisi-Qars dəmir yolu və digər layihələr daxildir - mövcud durumu ilə maraqlanır və heyrətini açıq-aydın bildirirdi ki, bu layihələrin hamısı Prezident İlham Əliyevin təşəbbüsü və möhkəm iradəsi sayəsində mümkün olub.

Bu arada onu vurğulayım ki, Davos Dünya İqtisadi Forumunda rəsmi tədbirlərdən əlavə, kuluarlarda böyük şirkət rəhbərlərinin, siyasətçilərin adi söhbətlərində bir narahatlıq ifadə olunurdu. Onlar bildirirdilər ki, dünya Dördüncü Sənaye İnqilabı ərəfəsindədir və bu sənaye inqilabı artıq qloballaşma formasında bütün dövlətləri, şirkətləri, cəmiyyətləri əhatə etməkdədir. Eyni zamanda, onları dünyada baş verən siyasi proseslər narahat edirdi. Yəni dünyanın hansı istiqamətə hərəkət etməsi, bir tərəfdən, dediyimiz kimi, dördüncü sənaye inqilabı, beşinci sənaye inqilabı, investisiya axını, iqtisadiyyatın və dövlətlərin, xalqların tərəqqisi, digər tərəfdən, dünyada yeni bir trend olan ticarət müharibələrinin, bir çox dünya ölkələrində sağ təmayüllü, radikal qüvvələrin meydana gəlməsi, bir çox regionların münaqişə girdabına yuvarlanması kimi hallar ilə bağlı həmin şirkət rəhbərlərində narahatlıq var idi. Maraqlı haldır ki, onlar öz təhlillərində dünyada bu kimi konfliktlərdən uzaq olan çox az dövlət tapa bilirdilər. Bu dövlətlər içərisində Azərbaycan xüsusilə seçilirdi. Demək olar ki, elə bir görüş yox idi ki, orada dövlətimizin başçısına “Siz bunu necə edirsiniz?” sualını verməsinlər. Bu sualı istər siyasətçilər, istərsə də şirkət rəhbərləri verirdilər: Yəni bu necə mümkün olur ki, çalxalanan dünyada, xüsusilə Sizin yerləşdiyiniz coğrafiyada - çox böyük siyasi gərginliyin, müharibə və çəkişmələrin hökm sürdüyü regionda, hətta özünüzə qarşı davamlı təhdidlərin olduğu, torpağınızın 20 faizinin işğal edildiyi bir şəraitdə Siz Azərbaycanı bir təhlükəsizlik, sabitlik adasına çevirə bilmisiniz? Dünyada bu problemlərlə yaşayan nəhəng ölkələrlə və qonşularınızla mehriban, qarşılıqlı əməkdaşlıq mühitini necə formalaşdıra bilmisiniz? Ən önəmli daha bir faktı qeyd edirdilər ki, bütün bu münasibətlər çərçivəsində Azərbaycan dövlətinin, Azərbaycan xalqının maraqları ən yüksək səviyyədə qorunur. Həm kuluarlarda, həm də rəsmi görüşlərdə Prezident İlham Əliyevə bu sual mütləq verilirdi.

***- Dünyanın ən böyük maliyyə qurumlarını nə maraqlandırır? Sabitlik. İnvestisiya hansı ölkəyə qoyulur? Sabitlik olan ölkəyə.***

- Sabitlik mütləq şərtdir ki, investisiyalar gəlsin. Çünki investisiya ürkək olur. İnvestisiya özünə rahat, sabit, gələcəyi proqnozlaşdırıla bilən yerlər tapır. Bu görüşlərdə Prezidentimizə verilən suallardan biri də bu olurdu.

Ardı Səh. 10

# Natiq Əmirov: "Davos görüşləri dünyanın Azərbaycana və Prezident İlham Əliyevin siyasətinə artan marağından xəbər verir"

Əvvəli səh. 9

Borge ilə görüşdən sonra Prezident İlham Əliyev qeyri-neft sektoruna aid şirkətlərin nümayəndələri ilə görüşməyə başladı. İlk görüşlərdən biri Dünya Bankı Qrupunun icraçı direktoru Kristalina Georgiyeva ilə oldu. Xanım Georgiyeva Azərbaycan haqqında çox xoş sözlər dedi. Azərbaycan Prezidentinin həyata keçirdiyi islahatların onların gözləntilərini aşdığını və Azərbaycanın əldə etdiyi nailiyyətlərin doğrudan da dünya iqtisadi məkanı üçün bir nümunə olduğunu vurğuladı. O, yenidən "Doing Business" hesabatını qeyd edərək, Azərbaycanın uğurlarının bugünkü keşməkeşli dünyada bilavasitə dövlət başçısının iradəsi hesabına baş verdiyini və bunun onlarda xüsusi sevinc yaratdığını bildirdi. Eyni zamanda, xanım Georgiyeva xatırlatdı ki, 20 il bundan əvvəl Azərbaycan Dünya Bankından yardım alan ölkələrdən biri idi. Həqiqətən də 1990-cı illərin sonlarında Dünya Bankı Azərbaycana müəyyən layihələrin həyata keçirilməsində kömək edirdi. O dövrdə dünyada bir çox ölkə Dünya Bankından yardım alırdı. Xanım Georgiyeva bizim bilmədiyimiz maraqlı bir faktı əlavə etdi ki, həmin çoxsaylı dövlətlərdən yalnız bir neçəsi öz iqtisadi müstəqilliyini təmin etmək üçün iqtisadiyyatlarını artıra bildi və bu gün Dünya Bankının yardımına ehtiyac olmadan ayaq üstündə duran dövlətlərə çevrildilər. O, bu ölkələrin sırasında Çini, Hindistanı, İndoneziyanı və Azərbaycanı xüsusilə qeyd etdi. Təklif etdi ki, Azərbaycan da Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyasının xətti ilə artıq dünyaya yardım edən bir dövlətə çevrilə bilər. Bu, dünyada nadir iqtisadi transformasiyalardandır ki, 20 il ərzində bir dövlət yardım alan dövlətdən donor dövlətə çevrilsin, özü investisiya yatırsın, Dünya Bankının xətti ilə həmin layihələrdə iştirak etsin. Kristalina Georgiyeva bildirdi ki, bu, Azərbaycanın əldə etdiyi uğurların dünya miqyasında tanınması, dünya tərəfindən qəbul edilməsi deməkdir. Eyni zamanda, artıq Azərbaycanın Dünya Bankı Qrupuna daxil olan həm Beynəlxalq Maliyyə Korporasiyasında, həm də Beynəlxalq Yenidənqurma və İnkişaf Bankında öz səhmlərini hətta artırmasının vaxtı çatdığını, bununla Azərbaycanın Dünya Bankının investisiyalarında, qurumun həyata keçirdiyi siyasətdə rolunun artırılması zamanının gəldiyini bildirdi və Prezident İlham Əliyevdən bu proseslərə diqqət yetirməsini xahiş etdi.

Daha sonra dövlətimizin başçısı "CISCO" şirkətinin vitse-prezidenti və satış rəhbəri xanım Gerri Elliott ilə görüşdü. "CISCO" illik dövriyyəsi təqribən 50 milyard dollara yaxın olan nəhəng bir şirkətdir və 74 mindən çox əməkdaşı öz sıralarında birləşdirir. Bu şirkət texnoloji və rəqəmsal həllərin həm iqtisadiyyatın ayrı-ayrı sahələrində, həm də sosial həyatda tətbiqini təmin edən şirkətlərdən biridir. Çox səmimi və maraqlı atmosferdə keçən görüşdə xanım Elliott belə bir sual verdi. Dedi ki, mən bu sualı özümə ilk dəfə verirdim ki, uğur qazanılması üçün nələr lazımdır. Mən özlüyümdə belə qənaətə gəlmişəm ki, uğurun qazanılması üçün üç əsas prinsip lazımdır. Birincisi, bu uğuru təmin edəcək lider, ikincisi, bu liderin həm orta, həm də uzunmüddətli aydın və gələcəyə yönəlmiş baxışının, fəaliyyət proqramının, strategiyasının olması, üçüncüsü, həmin baxışları, strategiyanı həyata keçirəcək bir komandanı formalaşdırmaq bacarığının olmasıdır. O əlavə etdi ki, "cənab Prezident, mən bunların hər üçünü Sizdə gördəndən sonra Azərbaycanın əldə etdiyi uğurların nəyə söykəndiyini bir daha müşahidə etmiş oldum". Prezident İlham Əliyev də qarşılığında dedi ki, Azərbaycanın əldə etdiyi bütün uğurların, ümumiyyətlə Azərbaycanın dövlət siyasətinin mənbəyində xalq durur. Biz xalqa xidmət etməklə, bir siyasətçi olaraq xalqın mənafeyinə, rifahına xidmət etməklə xalqdan bu mandatı əldə etmişik və bizim əsas komandamız da Azərbaycan xalqıdır. Azərbaycan xalqı Azərbaycan iqtidarını dəstəkləyir, Azərbaycan Prezidentinin fəaliyyətini dəstəkləyir.

Dövlətimizin başçısının siyasəti də bu istiqamətə yönəldilib.

***- Natiq müəllim, keçirilən görüşlərdə diqqəti cəlb edən ən mühüm məqamlardan biri, Sizin də qeyd etdiyiniz kimi, müxtəlif ölkələrin dövlət və hökumət başçılarının və aparıcı şirkətlərin rəhbərlərinin Azərbaycanda bu gün aparılan islahatlar, həyata keçirilən kompleks tədbirlər, infrastruktur quruculuğu və əldə olunan nəticələrlə bağlı səsləndirdiyi fikirlər idi. Yəni, bunu artıq biz demirik. Bu gün Azərbaycan haradan haraya gəlib çıxıb, nə kimi inkişaf yolu keçib, bugünkü müasir Azərbaycanın inkişaf göstəriciləri necədir? Bunu dünyanın aparıcı şirkətləri və nüfuzlu dövlət xadimləri etiraf edirlər.***

- Tamamilə doğrudur. "Visa" şirkəti cənab Prezidentlə görüş xahiş etmişdi. Bu şirkət plastik kart infrastrukturu və maliyyə xidmətləri sahəsində dünyanın ən nəhəng şirkətlərindən biridir. Şirkətin illik dövriyyəsi təqribən 25 milyard avroya yaxındır. Eyni zamanda, "Visa" öz sıralarında 16 mindən çox əməkdaşı birləşdirir. Şirkət Azərbaycanda da çox geniş kart şəbəkəsinə malikdir. Azərbaycanda mövcud olan bank kartlarının, kredit və debet kartlarının 46,5 faizi bu şirkətə məxsusdur. Ölkəmizdə bank sektorunun, maliyyə xidmətlərinin inkişafında "Visa" şirkətinin çox böyük rolu, əhəmiyyəti var. Şirkətin prezidenti Rayan Maklnerni Prezident İlham Əliyevlə görüşdə bildirdi ki, əslində bu il onun Davosa gəlməsinin kökündə cənab Prezidentlə görüş niyyəti var idi. O, "Doing Business" hesabatının nəticələri ilə tanış olandan sonra, sözün yaxşı mənasında, bir sevinc yaşadığını və onda bu qələbələrin müəllifi olan Azərbaycan Prezidenti ilə görüşmək arzusu yarandığını bildirdi. Qeyd etdi ki, Azərbaycan iqtisadiyyatını və cənab Prezidentin siyasətini təhlil edərkən Azərbaycanda rəqəmsal iqtisadiyyatın və ümumiyyətlə, Dördüncü Sənaye İnqilabından irəli gələn tələblərin çox geniş həll variantlarının və potensialın olduğunu, bu potensialın reallaşdırılması üçün çox yaxşı sabitliyin, maliyyə imkanlarının və ölkə Prezidentinin güclü iradəsinin mövcudluğunu gördü. Müzakirələr zamanı o, Azərbaycan iqtisadiyyatının transformasiyaya, rəqəmsal iqtisadiyyata, beşinci sənaye inqilabı istiqamətində həll variantlarının işlənilməsinə hazırlaşdığını qeyd etdi. Maklnerni bildirdi ki, "Visa" şirkəti Azərbaycan Prezidentinin həyata keçirdiyi islahatlarda, iqtisadi siyasətdə, layihələrdə iştirak etməyə hər zaman hazırdır və dəstəkləməkdə davam edəcək.

Bir məqamı da qeyd edim ki, bundan əvvəlki görüşdə "CISCO" şirkətinin nümayəndəsi Azərbaycan iqtisadiyyatının çox geniş təhlilini vermişdi. Çox maraqlıdır ki, o, öz təhlilində ölkəmizin ədliyyə və məhkəmə sistemində baş verən rəqəmsallaşmanı, burada elektron xidmətlərin, elektron məhkəmə sisteminin qurulmasını xüsusilə vurğulamışdı. Bir neçə gün əvvəl "İqtisadi azadlıq 2019" hesabatı dərc olundu və mən gördüm ki, "CISCO" şirkətinin vitse-prezidentinin söylədiyi fikirlər "İqtisadi azadlıq 2019" indeksində də öz əksini tapıb. Bu, tamamilə yeni dərc olunan indeksdir. Burada bizim mövqeyimiz birdən-birə 7 pillə irəliləyib. Bu irəliləyişin kökündə isə çox maraqlı faktorlar durur. Mən ölkəmizin hansı istiqamətlər üzrə irəlilədiyini müəyyən etmək üçün alt indikatorları təhlil etdim. Ən maraqlı cəhətlərdən biri odur ki, Azərbaycanın mövqeyi mülkiyyət hüquqlarının qorunması istiqaməti üzrə yüksəlib və ən böyük irəliləyişimiz məhkəmələrin səmərəliliyinin artırılması, eləcə də hökumətin bütövlüyü istiqamətindədir. Hökumətin bütövlüyünün ölçüsü onun xalqa verdiyi vədlər, həyata keçirdiyi siyasət və həmin siyasətin nə dərəcədə ardıcıl həyata keçirilməsidir. Bu indeks üzrə bizim mövqeyimizdə mühüm irəliləyiş olub. Hökumət xərcləri indeksində də mövqeyimiz irəliləyib və əlavə olaraq bildirirəm ki, bu indeksdə biz, nəhayət, investisiya azadlığı alt indikatoruna görə də irəliləyişə nail ola bilmişik.

***- Natiq müəllim, bir qədər öncə də qeyd etdiniz ki, Azərbaycan Prezidenti Dünya İqtisadi Forumu çərçivəsində qlobal miqyasda nüfuzu ilə seçilən 15 şirkətin icraçı direktoru, rəhbər heyəti ilə görüşlər keçirib. Bu şirkətlər kifayət qədər nüfuzlu və beynəlxalq maliyyə sektorunda öz çəkisi ilə seçilən şirkətlərdir. Onlar bir çox başqa ölkələrə deyil, məhz Azərbaycana maraq göstərirlər. Bu şirkətlərin rəhbərləri Prezident İlham Əliyevlə görüşməyə can atır və Azərbaycanla iqtisadi münasibətləri, neft və qeyri-neft sektorunda əməkdaşlığı dərinləşdirməkdə maraqlıdırlar. Bu faktın özü bir çox mətləblərdən xəbər verir.***

- Tamamilə doğrudur. Bu şirkətlər öz sahələri üzrə dünya iqtisadi məkanında drayver rolunda çıxış edən şirkətlərdir. Yəni bu şirkətlər qaydalar müəyyənləşdirir, dünya iqtisadiyyatının öz sahələri üzrə istiqamətini müəyyənləşdirir. Buraya "Microsoft", "CISCO", "VISA" və digər innovativ şirkətləri aid etmək olar. Onların Azərbaycan Prezidentinin ətrafında toplaşmasının, dövlətimizin başçısı ilə görüşməyə hədsiz marağının əsasında onun həyata keçirdiyi iqtisadi siyasət durur. Bir qədər əvvəl dediyimiz kimi, Prezident İlham Əliyevlə onların çox isti və çox məhsuldar görüşləri oldu. Bütövlükdə, görüşlərin mahiyyətində Dördüncü Sənaye İnqilabından artıq beşinci sənaye inqilabına, "artificial intelligence", yəni sənayedə süni intellektin dominant rol oynayacağı bir istiqamətə getməyimiz dayanır. Bu şirkətlərlə məsləhətləşmələrdə, bütövlükdə Azərbaycan Prezidentinin iştirak etdiyi müzakirələrdə belə bir qənaət hasil olurdu ki, artıq dövlətlər elmi dairələri, biznes və hökumət dairələrini və bu cür texnoloji şirkətləri bir yerə toplamaqla beşinci sənaye inqilabına, yəni, süni intellektin dominantlıq edəcəyi bir dövrə hazırlaşmağa istiqamət götürməlidir. Müzakirələr zamanı aydın olurdu ki, çox qısa bir müddətdən sonra, bəlkə 5-10 ildən, 15 ildən sonra bu gün bizim tanıdığımız, bildiyimiz peşələrin əksəriyyəti yoxa çıxacaq, onlara ehtiyac qalmayacaq. Bəs artan əhalini, artan iqtisadiyyatı, insanların rifah halını hansı yolla təmin etmək olar? Orada Prezident İlham Əliyev çox doğru olaraq vurğuladı və şirkət rəhbərləri tərəfindən də qeyd edildi ki, artıq insanları yeni peşələrə hazırlayan strategiyalar müəyyənləşdirilməlidir. Süni intellektin dominant rol oynayacağı dövrdə insanların peşəsini, ixtisasını necə dəyişəcəyi, öz əmək fəaliyyətini hansı şəraitdə davam etdirəcəyi istiqamətində indidən çalışmaq lazımdır.

Söhbətimizin əvvəlində dediyim kimi, Davos İqtisadi Forumunun builki toplantısında məhz süni intellekt dövrünə hazırlıq, Dördüncü Sənaye İnqilabının nəticəsi olan qloballaşmadan maksimum faydalanmaq və bütün bu mürəkkəblik, çağırışlar zəminində ölkələrin firavanlığını, sabitliyini, iqtisadi və siyasi təhlükəsizliyini qorumaq dövlətlər qarşısında duran ən böyük çağırış idi və Prezidentimizlə keçirilən görüşlərdə də bu məsələlər barədə ətraflı müzakirələr aparıldı. Bu şirkətlərin marağının kökündə duran ən mühüm məsələlərdən biri Azərbaycanın bütün iqtisadi göstəricilərinin müasir dünyada üstün və çox innovativ inkişafa meyilli olması idi. Bir faktı yenidən qeyd edim ki, "İqtisadi azadlıq 2019" indeksində Azərbaycan investisiyaların azadlığı alt indikatoruna görə də irəliləməyə nail olub və bu da "Doing Business" hesabatından, bu hesabat üzrə ölkəmizin göstəriciləri isə Prezident İlham Əliyevin apardığı siyasətdən irəli gəlir. "Doing Business" göstəricisinə görə bu gün biz bütün BRICS ölkələrini, Müstəqil Dövlətlər Birliyi ölkələrini, eləcə də bir çox Avropa ölkələrini qabaqlayırıq. Eyni zamanda, Azərbaycan dünyada cəmi üçdörd ölkədən biridir ki, son 15-20 ildə adambaşına düşən sərvəti iki dəfədən çox artıra bilib. Bu nailiyyət dövlət və xalq, iqtidar və xalq birliyinin, vəhdətinin sayəsində əldə olunub. Prezidentimizə sual veriləndə ki, Siz bu sabitliyə necə nail olursunuz, dövlətimizin başçısı deyirdi ki, bizim fəaliyyətimizin kökündə Azərbaycan xalqı dayanır, onun rifahı və xoşbəxt yaşaması dayanır və biz də bütün fəaliyyətimizi xalqımızın firavanlığına, dövlətimizin sabitliyinə və inkişafına yönəldirik. Bu, bizim uğurlarımızın rəhnidir, bu, bizim uğurlarımızın kökündə duran əsas amildir.

# Dünya insanı qaniçən erməninin məkrli siyasətindən xəbərdardır

***Ötən əsrin 90-cı illərində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana qarşı işğalçılıq müharibəsinin başlanması və zəbt olunmuş Azərbaycan torpaqlarında qurulmuş işğalçılıq rejimi nəticəsində, dövlətimizə külli miqdarda ziyan dəymişdir.***

Azərbaycanın erməni hərbi birləşmələri tərəfindən işğal olunmuş ərazilərində törədilmiş vandalizm əməllərinin nəticəsi olaraq, evlər talan edilərək sökülmüş, yandırılmış, tarixi abidələr, xüsusilə, qəbiristanlıqlar dağıdılmışdır. İşğal olunmuş Azərbaycan ərazilərinin talan və qarət edilməsində, o cümlədən, evlərin, abidələrin, qəbiristanlıqlardakı qəbir daşlarının sökülməsində əsir və girovların əməyindən istifadə edilməsi də danılmaz faktdır. Maddi-mədəniyyət abidələrinin dağıdılması ilə bağlı Respublika Hərbi Prokurorluğunda cinayət tərkibli işlərə baxılmışdır. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı, deportasiya, işgəncə və digər epizodlar üzrə aparılmış istintaq hərəkətləri nəticəsində sülh və insanlıq əleyhinə müharibə cinayətləri törətmiş 239, banditizm, qəsdən adamöldürmə və digər cinayətlər törətmiş 48 nəfər olmaqla, 287 nəfər barəsində təqsirləndirilən şəxs qismində cəlbetmə qərarları çıxarılmışdır.

Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsi erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etdiyi halda, Ermənistan buna məhəl qoymur. Eyni zamanda, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər.

Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Silahlı münaqişə baş verdikdə, mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasına, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasına, "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun 1972-ci il Konvensiyasına ziddir.

Azərbaycan öz haqq səsini ucaldır və dünya ictimaiyyətini hadisələrlə düzgün məlumatlandırır. Heydər Əliyev Fondunun dəstəyi ilə, artıq neçə illərdir ki, "Xocalıya ədalət" kampaniyası çərçivəsində dünyanın bir çox ölkələrində soyqırımına həsr olunmuş silsilə tədbirlər keçirilir. Dünya ictimaiyyətinə Xocalı soyqırımı haqqında obyektiv və dürüst informasiya çatdırmağa, ictimai rəyi formalaşdırmağa yönələn tədbirlər müxtəlif qurumların, diplomatik missiyaların nümayəndələri, şəhər sakinləri, eləcə də, xarici kütləvi informasiya vasitələrinin əməkdaşlarının iştirakı ilə keçirilir. Braziliyada, Londonda, Koreyada və onlarla dünya ölkələrində Azərbaycan həqiqətləri müxtəlif şəkildə təqdim edilib. Bütün bunlarla yanaşı, Koreya dilində Xocalı soyqırımı haqqında videoçarx hazırlanaraq, ən böyük axtarış saytı olan "Naver", eləcə də, "Google" və "Youtube"da yerləşdirilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası çərçivəsində "Müharibə cinayətinin Xocalı şahidi. Ermənistan müttəhim kürsüsündə" adlı kitab çapdan çıxıb.



Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, XX əsrin sonunda bütün dünyanın gözü qarşısında törədilmiş, qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı erməni millətçilərinin təcavüzkar siyasətinin ən qanlı səhifəsi olmuşdur: "Bu ağır cinayətə görə siyasi-hüquqi məsuliyyət birbaşa Ermənistanın o zamankı və indiki rəhbərliyinin, Dağlıq Qarabağdakı separatçı rejimin üzərinə düşür".

Bu gün dünya insanı Qarabağda, Xocalıda baş verən olayları layiqli və düzgün qiymətləndirir. Bu gün Xocalı soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də, bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində, davamlı olaraq, addımlar atılır. Aparılan bu uğurlu siyasətin nəticəsidir ki, dünya ölkələrinin bir qismi tərəfindən Xocalı soyqırımının rəsmən tanınması barədə qərar qəbul edilib. Faciəni qətliam kimi tanıyan ABŞ ştatları - Texas ştatı, Nyu-Cersi ştatı, Corciya ştatı, Men ştatı, Nyu-Meksiko ştatı, Arkanzas ştatı, Missisipi ştatı, Oklahoma ştatı və başqa ştatlar qətnamə qəbul ediblər. Dünya ölkələrində Hollandiyada, Almaniyada, Bosniya və Herseqovinada, Meksikada, Türkiyədə və başqa ölkələrdə Xocalı abidəsi ucaldılıb. Bu onun göstəricisidir ki, Xocalı soyqırımı dünya ölkələrində tanınır. Bu gün, təbii ki, Avropa dillərində çap olunuan kitablar, çəkilən filmlər və s. Azərbaycan həqiqətləri ilə dünya ictimaiyyətini baş-başa qoyur. Beynəlxalq qurumlar qarşısında fikirlərimizi qətiyyətlə söyləyə bilirik. Bu, Azərbaycanın dünyada formalaşan imicinin məntiqidir. Belə bir zamanda, iyrənc siyasəti ilə tanınan ermənilər Gürcüstanın Buqaşen qəsəbəsində Axalkalaki bələdiyyəsi tərəfindən Azərbaycan ərazilərinin işğalında iştirak etmiş Mixail Avaqyana büst qoyulub. Bu, əlbəttə ki, Azərbaycanın narazılığına səbəb olmaya bilməz. Mixail Avagyan Gürcüstanın Axalkalaki rayonunun Buqaşen kəndində doğulsa da, Qarabağ müharibəsi başlayan zaman Horadiz, Xocalı, Hadrut və Füzuli istiqamətlərində döyüşlərdə iştirak edib, "Kobra" ləqəbli ilə tanınmışdır. O, azərbaycanlılara qarşı qəddarlığı ilə tanınıb. Odur ki, Gürcüstanın özündə də işğalçıya abidənin qoyulması birmənalı qarşılanmayıb. Əksər gürcü ekspertlər rəsmi Bakının etirazlarına haqq qazandırıblar.

Dağlıq Qarabağ və ətraf rayonların işğalında və azərbaycanlıların qətlində iştirak etmiş M.Avaqyan, əsasən də, Xocalı hadisəsində çox böyük qaniçənlik edib. Yəni bu şəxs həm Abxaziya hadisələri zamanı gürcülərə, Xocalı hadisələri zamanı isə azərbaycanlılara qarşı döyüşüb.

Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindən biridir. Gürcüstanla Azərbaycanı hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. İkitərəfli münasibətlər bütün sahələr əhatə edir.

Sıx qarşılıqlı əməkdaşlığa, dövlətlər arasında olan mövcud təmələ Mixail Avaqyana qoyulan büst xələl gətirə bilməz. Azərbaycan-Gürcüstan münasibətləri bir çox ölkələr üçün nümunə olmalıdır. Çünki bu xalqları və ölkələri əsrlərə söykənən dostluq və strateji əməkdaşlıq bağlayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

## Şarmazanov: "Deyəndə ki, diktaturaya doğru gedirik, heç kim inanmırdı"



Demək olar ki, hər gün hakimiyyətdən narazı olanların sayı artır. SİA xəbər verir ki, bu-nu Ermənistanın sabiq spikeri Eduard Şarmazanov Facebook vasitəsi ilə çıxdığı canlı yayımda bildirib. "Dünən məlum olub ki, Ermənistan hökumətində nə az, nə çox "danışan" biri peyda olub və bu danışan xalq deyil, meydanlara çıxan publika deyil, məhz baş nazir Paşinyandır", deyə Şarmazanov qeyd edib. Sabiq spiker onu da bildirib ki, artıq reallıq dəyişilib: "Məgər sizlərin hər biriniz baş nazirsiniz və siz danışmalısınız, necə deyirsinizsə, elə də olacaq deyən o deyildimi? Mən sizə deyəndə ki, diktaturaya doğru gedirik, heç kim inanmırdı".

***Rövşən***

## "Beqişevo" aeroportundan Azərbaycana reyslər açılacaq

Bu il Tatarıstanın "Beqişevo" beynəlxalq aeroportu Azərbaycana reyslər təşkil etməyi planlaşdırır. AZƏRTAC Rusiya KİV-lərinə istinadla xəbər verir ki, aeroport Antalyaya uçuşların sayını artırmaq, İstanbula mütəmadi reysi bərpa etmək, Azərbaycan və Özbəkistana reys açmaq niyyətindədir.

Uçuşları həyata keçirəcək aviaşirkət və reyslərin başlanması tarixi açıqlanmır.

## "Bolton İlham Əliyevlə danışdığı zaman Karasin İrəvanda idi"



ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Bolton İlham Əliyevlə telefonda danışdığı saatlarda Rusiya xarici işlər nazirinin müavini Qriqoriy Karasin İrəvanda idi, Ermənistanın xarici işlər naziri ilə görüş keçirirdi. Maraqlı kombinasıyadır". Bunu SİA-ya açıqlamasında politoloq Elxan Şahinoğlu deyib. Onun sözlərinə görə, Karasin Rusiyanın məşhur diplomatı Aleksandr Qriboyedovun ölümünün 190 illiyi ilə bağlı İrəvanda büstünün açılması mərasiminə qatılmışdı: "Fürsətdən istifadə edən Karasin Qarabağla bağlı da maraqlı açıqlamalar verib.

Birincisi, Karasin deyib ki, Moskva Ermənistanla Azərbaycan arasında müxtəlif səviyyələrdə rəsmi görüşləri dəstəkləyir. Ancaq önəmli əlavəsini də unutmayıb: "Görüşlər yaxşı təşkil olunmalıdır ki, nəticə olsun və bizi irəli aparsın". Yəqin demək istəyib ki, Rusiyadan fərqli olaraq digər dövlətlərin təşkil etdiyi görüşlərdə nəticə olmur. Halbuki, illərdir münaqişənin həlli prosesi ilə daha çox Moskva məşğul olur və görüşlərin çoxu Rusiya ərazisində keçirilir. Bəs belə isə məsələyə Karasinin məntiqi ilə yanaşsaq Rusiyadakı görüşlərdə niyə nəticə yoxdur?

İkincisi, Karasin deyib ki, Moskva atəşkəsə riayət olunmasından məmnundur: "Elə etmək lazımdır ki, güc ssenariləri istisna olunsun". Karasinin kimin ünvanına daş atdığı bəllidir. Güc ssenarisi haqqında ancaq bir tərəf - Azərbaycan danışır, haqqımızdır, çünki işğalçı status-kvonu davam etdirir.

Üçüncüsü, erməni jurnalistlərdən birinin "bu il münaqişənin həllində irəriləyiş ola bilərmi" sualına Karasin belə cavab verib: "Danışıqları sakit şəraitdə davam etdirmək lazımdır". Yəni Karasin demək istəyib ki, hadisələri qabaqlamaq lazım deyil. Beləliklə, rusiyalı yüksək rütbəli diplomat Qriroqiy Karasin İrəvanda nə deyibsə hamısı işğalçının xeyrinədir. Bu arada, Ermənistanın baş naziri Nikol Paşinyan açıqlama verib ki, sülh əvəzinə Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmayacaq".

***Ceyhun Rasimoğlu***

## "Bu ilin sonuna kimi daha iki qatar alınacaq"




"Yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfrans keçirildi. Həmin konfransda cənab Prezident İlham Əliyev bildirdi ki, "Azərbaycan Dəmir Yolları" QSC-nin qarşısında hansı işlər olmalıdır. Dövlət başçısının da söylədiyi kimi biz Şahdağ və Qəbələ turizm mərkəzlərinə dəmir yolunun çəkilişini planlaşdırırıq". Bunu SİA-ya açıqlamasında "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov deyib.

Sədrin sözlərinə görə, artıq bu il layihələnmə işləri davam etdiriləcək və yeni yolun çəkilməsi üçün torpaqların alınması prosesi gedəcək: "Bakıdan Yalamaya qədər olan ərazinin yenidən qurulması planlaşdırılır. Eləcə də Bakıdan Astaraya yeni İran sərhədinə qədər yenidənqurma işləri gedəcək. Burada yolun Lənkərandan kənara çıxarılması olacaq. Daha sonra Qərb tərəfdə işlər davam edəcək".

C.Qurbanov yeni sürət qatarlarının alınmasından da danışıb: "Artıq iki yeni qatar alınıb. İlin sonuna kimi daha ikisi də alınacaq. Ankara şəhərinə işləyən qatarlarımız artıq Türkiyə ərazisindədir. Orada olan 10 vaqonumuzun sınağı keçiriləcək. Bu da təqribən 10 gün vaxt alacaq. Həmin sınaqlar başa çatdıqdan sonra qatarlar Azərbaycan ərazisinə gələcək".

***Ceyhun Rasimoğlu***

## BSU-da yeni təlim-tədris mərkəzinin açılışı olub

Dünən Bakı Slavyan Universitetində ERASMUS+PETRA (Azərbaycan universitetlərində tədrisin və təlimin təkmilləşdirilməsi) layihəsi çərçivəsində yaradılmış təlim-tədris mərkəzinin açılışı olub. Açılış mərasimində yeni yaradılmış təlim-tədris mərkəzinin qarşısında qırmızı lent kəsilib.Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva bildirib ki, Azərbaycanın qabaqcıl universitetlərində dünya təhsil sisteminə, xüsusən də, Avropa təhsil məkanına inteqrasiya, tədris prosesinin qabaqcıl təcrübədən faydalanmaqla təkmilləşdirilməsi məqsədilə bir sıra uğurlu layihələr həyata keçirilir. Rektor bildirib ki, mərkəz tərəfindən müəllim və tələbə heyəti üçün zəruri təlim-seminarlar, işə yeni başlayan müəllimlərin universitet həyatına adaptasiya olması, magistrant, o cümlədən, doktorantlar üçün uğurlu elmi-tədqiqat işinin təşkili və yerinə yetirilməsinin metodlarına həsr olunan kursların təşkili təmin ediləcək. Rektor onu da bildirib ki, Bakı Slavyan Universiteti layihəyə qoşulduğu müddətdə universitetin əməkdaşları Türkiyənin Qazi, Avstriyanın Vyana Tətbiqi-Elmlər Universiteti, Finlandiyanın Yuvaskyla və İspaniyanın Valensia Politexnik universitetlərində müvafiq təlim, seminar və konfranslarda da iştirak edərək, Avropa universitetlərinin təcrübəsindən yararlanıblar: "Bundan əlavə, universitet əməkdaşları layihə ilə əlaqədar Xəzər Universitetində təşkil olunmuş seminar və konfransda iştirak ediblər."





BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov layihənin mahiyyəti və gələcək planlar barədə məlumat verib. O bildirib ki, Bakı Slavyan Universiteti ERASMUS+-PETRA layihəsinə tərəfdaş universitet olaraq, 2017-ci ilin iyul ayından qoşulub: "Layihənin böyük hədəfi Azərbaycanda tədris və təlimdə mükəmməlliyin təşviq olunmasıdır. Başlanğıc, inkişaf, yayılma və istismar mərhələsindən ibarət olan layihə Azərbaycanın Bakı Slavyan Universiteti də daxil olmaqla, 5 dövlət və 2 özəl universitetlərini təlim və tədrisin keyfiyyətinin təkmilləşdirilməsi üçün hədəf seçib. Universitetimiz başlanğıc mərhələsini keçmiş, hal-hazırda inkişaf mərhələsindədir."

Tədbirdə çıxış edən BSU-nun İngilis filologiyası kafedrasının baş müəllimi, layihənin işçi qrupunun tədqiqatçısı Natəvan Babayeva yeni yaradılmış təlim-tədris mərkəzinin qarşıya qoyduğu məqsəd, nəzərdə tutulan planlar, layihə çərçivəsində nəzərdə tutulmuş kurslar, treninqlər və seminarlar barədə ətraflı məlumat verib. N.Babayeva bildirib ki, təlim və tədris mərkəzini təchiz etmək üçün nəzərdə tutulan zəruri avadanlıq - 10 ədəd personal kompüter, 10 ədəd planşet, 10 ədəd notbuk, proyektor və ağıllı lövhələr Avropa İttifaqının dəstəyi ilə alınıb və quraşdırılıb.

Açılış mərasimindən sonra iştirakçılar layihə çərçivəsində keçiriləcək seminar və treninqlər üçün müasir standartlara uyğun yaradılmış auditoriya ilə tanış olublar.

***ZÜMRÜD BAYRAMOVA***

## "Ər-Riyad": "Azərbaycan tolerantlıq və inkişaf respublikasıdır"

Səudiyyə Ərəbistanının "Ər-Riyad" qəzetində "Azərbaycan tolerantlıq və inkişaf respublikasıdır" adlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, müəllif Fayız əl-Şəhri məqalədə Azərbaycanda hökm sürən tolerantlıq barədə ətraflı məlumat verir. O, ölkəmizdə vəhdət namazının qılınmasının şahidi olduğunu bildirir.



Məqalədə vurğulanır ki, Azərbaycanda birgəyaşayış nümunəsi diqqəti cəlb edən yeganə məsələ deyil. Bu ölkədə gedən sürətli inkişaf da maraqlıdır. Azərbaycan Sovet İttifaqının dağılmasından sonra - 1991-ci ildə müstəqilliyini bərpa edib. Yazıda Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal edildiyi də diqqətə çatdırılır.

Müəllif Azərbaycanın iqtisadiyyat sahəsində qazandığı uğurlardan da bəhs edir, Dünya Bankının hesabatına görə ölkəmizin ən islahatçı 10 dövlət sırasında olduğu diqqətə çatdırılır. Fayız əl-Şəhri Azərbaycan xalqının qonaqpərvərliyini də xüsusi vurğulayır. O bildirir ki, Bakıda müasirliklə yanaşı, qədim adət-ənənələr, dəyərlər də qorunub saxlanılır. Məqalədə, həmçinin tarixi məkanlarımız, o cümlədən İçərişəhər haqqında ətraflı məlumat verilir.

## Sədaqət Vəliyeva: "Azərbaycanımızı uğurdan-uğura aparan amil, məhz xalqın hakimiyyətə, Cənab İlham Əliyevə dəstək verməsi ilə əlaqədardır"



"2003-cü ildə keçirilən prezident seçkilərində xalqın böyük əksəriyyətinin etimadını qazanan dövlət başçısı İlham Əliyevin ilk təsdiqlədiyi sənədlərdən birincisi, məhz regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı oldu. Ötən 15 il ərzində, Prezident İlham Əliyevin imzaladığı regionların sosial-iqtisadi inkişafı üzrə 3 Dövlət Proqramının reallaşdırılması nəticəsində, bu gün Azərbaycan, nəinki Cənubi Qafqaz regionunun, hətta MDB-nin ən sürətli inkişaf edən ölkəsinə çevrilib. Əminəm ki, təsdiqlənmiş 4-cü Dövlət Proqramı növbəti 5 il ərzində ölkəmizin inkişafına çox böyük töhfələr verəcək". Bu fikirləri Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, son 15 il ərzində həyata keçirilən 3 böyük Dövlət Proqramı nəticəsində respublikamızda aqrar və sənaye sahələrində ciddi dönüş yaranıb və əhəmiyyətli uğurlar əldə edilib: "Məsələn, son 15 il ərzində, Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf edib, ümumi daxili məhsul 3,3 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, ixrac 4,7 dəfə, kənd təsərrüfatı məhsullarının ixracı təxminən 6 dəfə, valyuta ehtiyatları 24 dəfə artıb. 15 il ərzində, Azərbaycana, təxminən 250 milyard dollar sərmayə qoyulub, sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötüb, 2 milyon yeni iş yeri yaradılıb. Son 15 il ərzində, maaşlar 7, pensiyalar da 9 dəfə artıb. Həmçinin, Sumqayıt Kimya Sənaye Parkı, Sumqayıt Texnologiya Parkı, Mingəçevir Yüngül Sənaye Parkı, Gəncə şəhərində sənaye müəssisələrinin, Neftçala, Hacıqabul, Masallı, Sabirabad sənaye məhəllələrinin, eləcə də, 17 aqroparkın yaradılması, növbəti illərdə isə sənaye məhəllələrinin və aqroparkların sayının artırılmasının planlaşdırılması Azərbaycan üçün uğurlu perspektiv vəd edir".

"Bu gün respublikamız əldə olunan nailiyyətlər əsasında beynəlxalq təşkilatların hesabatlarındakı reytinqlərdə də ön sıralarda qərarlaşıb" - deyən Sədaqət Vəliyeva əlavə edib ki, Azərbaycan dövləti müasir infrastruktur yaratmaq göstəricilərinə görə, MDB-də ön sıralardadır, aparılan köklü islahatlar, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində isə, Dünya Bankının "Doing Business" hesabatında dünya miqyasında 25-ci yerdədir: "Bütün əldə olunan nailiyyətlər, əlbəttə ki, Azərbaycanda həyata keçirilən uğurlu siyasi kursun, Prezident İlham Əliyevin siyasi iradəsinin nəticəsidir. Azərbaycanımızı uğurdan-uğura aparan amil isə, məhz xalqın hakimiyyətə, Cənab İlham Əliyevə dəstək verməsi ilə əlaqədardır. Azərbaycandakı xalq-iqtidar birliyi ölkəmizin bundan sonra da çox böyük nailiyyətlər əldə etməsinə səbəb olacaq."

***RƏFİQƏ KAMALQIZI***

## Binəqədi rayonunda "Sağlam Yaşam" adlı layihənin yarış günü və bağlanış mərasimi keçirilib

Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi və Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı gənclər birliyinin təşkilati dəstəyi ilə fondun 11-ci qrant müsabiqəsinin qalibi, YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin fəalı Aslan Aslanovun "Sağlam Yaşam" adlı layihəsinin yarış günü və bağlanış mərasimi keçirilib.



Tədbiri giriş sözü ilə açan layihə rəhbəri Aslan Aslanov Azərbaycan Respublikası Gənclər Fonduna gənclərə göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib, layihə çərçivəsində keçirilən tədbirlərin əsas məqsəd və hədəflərindən söz açıb.

Sonra iştirakçılar komandalara bölünərək, futbol hakiminin müşahidəsi ilə oyuna başlanıb. Yarışda məktəblilər iştirak edib, qalib komandalar kuboklarla mükafatlandırılıb və hər bir məktəbli layihədə iştirak etdiyi üçün sertifikatlarla təltif edilib.

***ZÜMRÜD***

## Artıq dövlət rüsumunu ən rahat yolla öyrənmək mümkün olacaq

Vətəndaşlar kadastrla bağlı xidmətlərə müraciət etməzdən öncə dövlət rüsumu və xidmət haqqının miqdarını öyrənə bilər. Bu Əmlak Məsələləri Dövlət Komitəsinin elektron xidmətlərindən biri olan "Kadastr kalkulyatoru" ilə mümkündür. Komitədən Trend-ə verilən məlumata görə, informativ xidmətlə vətəndaşlar, fiziki və hüquqi şəxslər onlayn qaydada dövlət rüsumu və xidmət haqqını hesablaya bilir.

Bu elektron xidmət istifadəçiyə "Kadastr planlarının və yerquruluşu xəritələrinin tərtibi" və "Torpaqların inventarlaşdırılması və müayinə baxış aktlarının tərtibi" ilə bağlı tələb olunan xidmət haqqı və dövlət rüsumunu öyrənmək imkanı verir. Vətəndaşın öncədən kadastr xidmətləri ilə bağlı qanunvericiliyə uyğun olaraq ödəyəcəyi məbləğlə tanış olması prosesdə şəffaflığı artırır, şəxsi seçiminə uyğun daha düzgün qərarı verməsini təmin edir. Xidmətdən istifadə etmək istəyən vətəndaşlar Əmlak Məsələləri Dövlət Komitəsinin Elektron Xidmətlər Portalında (e-emdk.gov.az) 40-cı elektron xidmət olan "Kadastr kalkulyatoru" bölməsinə daxil ola bilər.

# "Milli Şura" növbəti dəfə biabır oldu

*Vətəndaşlar Kərimli və dəstəsinin çağırışlarını qulaqardına vurdular*

***Dağıdıcı müxalifət adlı düşərgədə təmsil olunan satqınlar və xəyanətkarlar öz iyrənc və yaramaz əməllərini dayandırmaqdansa, daha da genişləndirirlər. 19 yanvarda mitinq keçirməklə diqqəti özlərinə cəlb etmək istədilər, amma alınmadı. Daha sonra 20 Yanvar şəhidlərinin əziz ruhları 29-cu dəfə anıldığı gün yenə ucuz şou, yenə artistlik, yenə də naxələflik etmək istədilər. AXCP sədri Əli Kərimli, onun siyasi nökərinə çevrilmiş "Milli Şura"nın sədri Cəmil Həsənli, Müsavat başqanı Arif Hacılı - hər biri ayrı-ayrılıqda və xalqın şərəf tarixi günündə də öz murdar, satqın və xəyanətkar olduqlarını nümayiş etdirməyə çalışdılar.***

Ancaq istəkləri iylənmiş, iy vermiş içlərində qaldı. Bu gədalar Cümhuriyyət qurucularından olan Məmmədəmin Rəsulzadənin adından istifadə edərək, Novxanıda mitinq keçirməklə, yenə də, ən azı mətbuatın diqqət mərkəzinə çevrilməyə çalışdılar. Yanvarın 19-da "Məhsul" stadionunda uzun illərdən bəri iki minlik baryeri aşaraq, 2800 adam toplayan radikal müxalifət növbəti addımı ilə potensialının son dərəcə biabırçı vəziyyətdə olduğunu cəmiyyətə nümayiş etdirdi. 10 gündən artıq sosial şəbəkələr və başqa vasitələrlə Məmmədəmin Rəsulzadənin ildönümünü "möhtəşəm aksiyaya" çevirəcəklərini bəyan edən "Milli Şura" adlı qurum, Müsavat, AXCP və digər partiyalar onun abidəsinin yanına cəmi 200-300 adam yığa bilиblər.

### Aksiyanın uğursuzluğu müxalifətin miskin və acınacaqlı durumda olduğunu nümayiş etdirdi

Müşahidələrə əsasən, demək olar ki, AXCP sədri Ə.Kərimli və "Milli Şura" rəhbərliyi heykəlin yanına 100 nəfərdən bir az artıq adam çıxara bilmişdilər. Bir o qədər də Müsavat partiyasının fəalları olub. AXP sədri Pənah Hüseyn isə, abidənin önünə 3 nəfərlə gəlmişdi. Yerdə qalan "möhtəşəm" partiya sədrləri isə tədbirə tək qatılmaq məcburiyyətində qalıblar. Bu faktın özü dağıdıcı müxalifətin nə dərəcədə miskin və acınacaqlı durumda olduğunu əyani şəkildə nümayiş etdirir. Ağız dolusu "xalqın dəstəyi" barədə danışan "liderciklər" bütün hazırlıqlarına baxmayaraq, öndər hesab etdikləri şəxsin ildönümünə cəmi 200-300 adamla qatıla biliblər. Yanvarın 20-də Şəhidlər Xiyabanını ziyarət edən zaman süni şəkildə qarşıdurma yaratmış Ə.Kərimli internet-mediaya onunla xiyabana gələn "on minlərlə" adamın qarşısının necə alınmasından danışmışdı. O, utanmadan deyirdi ki, polis qəsdən "Milli Şura"nın tərəfdarlarını qrup şəklində Şəhidlər Xiyabanına buraxır ki, az görünsünlər.



### Hafiz Hacıyev: "Əli Kərimli "siyasi fahişədir"

Görəsən, "Milli Şura" M.Ə.Rəsulzadənin heykəlinin yanına, o 10 minləri niyə aparmayıb və cəmi 120-130 adamla gəlib? Axı polis onlara heç bir maneçilik törətməmişdi! Bütün bunlar göstərir ki, Ə.Kərimli, C.Həsənli və digər radikal müxalifət başçılarının dedikləri ağ yalan və ictimaiyyətin çaşdırılmasına yönəlmiş ucuz təbliğatdan başqa, bir şey deyil. Bu rəzillik Ə.Kərimli və onun tərəfdarlarının hakimiyyətin son tədbirlərini (struktur islahatları nəticəsində fəaliyyətinə xitam verilmiş orqanların əməkdaşlarının işlə təmin olunması barədə dövlət başçısının və birinci vitse-prezidentin tapşırıqları, şəhid ailələri ilə görüş, bununla bağlı verilmiş sərəncamlar və s.) 19 yanvar mitinqinin effekti ilə izah etmək cəhdinin sabun köpüyündən başqa bir şey olmadığını göstərir. Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev bildirib ki, Ə.Kərimli adlı bu əxlaqsız gəda əsl siyasi fahişədir: "Hətta iddia edirəm və sübut etməyə də hazıram ki, bunların adamları qonşu ölkədə gizli danışıqlar apararaq, ölkəmizdə sabitliyi pozmağa yönəlmiş planlar düzməklə məşğuldur. Hər zaman demişəm, Əli Kərimli stabil insan deyil, belə adamlara heç nədə etibar etmək olmaz".

Hafiz Hacıyev Ə.Kərimlinin daim siyasi fahişəliklə məşğul olduğunu deyib və bildirib ki, kim çox pul verərsə, o, həmin dairələrin qucaqlarına atılır: "Yəni bu fərdlərə siyasətdə siyasi fahişə, siyasi pozğun deyirlər. Ümumiyyətlə, Əli Kərimliyə kim pul verirsə, onların qucağında oturur, özü də məmnuniyyətlə. Məsələn, Qərb verəndə Qərbin, Şərq verəndə Şərqin, Şimal da verəndə Şimalın qucağında özünü rahat-layır". H.Hacıyev onu da bildirib ki, Ə.Kərimli elə alçaq və çirkaba bulanmış məxluqdur ki, ölkədə mitinq keçirmək istəyi altında siyasi xaos yaralmaq istəyir.

### Müxalifət rəzil siyasətin acı bəhrəsini görür

Siyasi ekspert Zərdüşt Əlizadə tarixi şəxsiyyətlərə yanaşmaların zamanla dəyişildiyini deyir: "Amma başqa bir məsələ də var ki, ötəri siyasi yanaşmalardan əlavə, tarixin obyektiv siyasi qiyməti var. Hamı bilir ki, zamanında Mirzə Fətəli Axundovun tərəfdarı çox deyildi. Sabirin və Zərdabinin tərəfdarı çox deyildi. Amma indi onların tarixdə yerləri tapıldı. Rəsulzadənin Azərbaycan tarixində yeri, şübhəsiz, böyükdür. Ondan böyük əsərlər yadigar qalıb. Səhvləri də olub, amma ki, səhvsiz insan yoxdur. Ona qarşı qoyulan adamların çıxışlarından başqa, heç nələri yoxdur".

"Utanmasan, oynamağa nə var ki? Bu gün Rəsulzadənin adını, demokratik cümhuriyyətçilik fəaliyyətini, real müsavatçılığını siyasi dividendi xatirinə özünküləşdirən İ.Qəmbər, A.Hacılı, C.Həsənli və Ə.Kərimli rəzil fərdlərdirlər. Bu ünsürlər heç zaman bir araya hələ bilməzlər, hətta xarici ağaları belə onlardan bunu tələb etsə də. Hələ "Milli Şura" yaradılarkən, Rəsulzadənin abidəsi önünə sonuncu dəfə bir yerə yığışan AXCP və Müsavat rəhbərliyi həmin vaxt birinci söz demək üçün birbirlərinə qarşı çıxmışdılar. Hətta "öndərlərinin" abidəsi önündə qarşıdurma da yaşanmışdı. Bunu heç kim unutmayıb! Ona görə də, siyasi dividendləri, fərdi ideyalarını reallaşdırmaqdan ötrü bu boyda xalqın qabağında yalan danışmaq, artistlik etməyin heç yeri-filanı yoxdur. Hətta M.Ə.Rəsulzadə qarşısında belə, oyunbazlıqlar edən Ə.Kərimli və İ.Qəmbər bu və ya digər şəkildə səmərə götürəcəklərini düşünürlərsə, ciddi surətdə yanılırlar. Çünki bu, onların birinci yanlışlıqları deyil.

***Rəfiqə HÜSEYNOVA***

## Erməni sosioloq: "Təqiblər davam edərsə, etiraz dalğası daha da güclənəcək"



Ermənistanda müxalifət partiyalarından birinin sədr müavini, "Haynews.armenia" saytının məsul şəxsi Mqer Yegiazaryanın ölümü ictimai-siyasi qarşıdurmanı artırıb. "Nubaraşen" həbsxanasında keçirdiyi 44 günlük aclıq aksiyası nəticəsində ölən Mqer Yeqiazaryan ötən ilin dekabrında həbs olunub. 51 yaşlı siyasətçi 2014-2018-ci illərdə fırıldaqçılıq yolu ilə hərbçiləri işlə təmin etmək, yaxud xidməti vəzifəsini yüksəltmək adı ilə külli miqdarda - 4 milyon 775 min dram vəsait mənimsəməkdə ittiham edilirdi. O özü isə ittihamları rədd edərək, həbs olunmasını siyasi səbəblərlə əlaqələndirirdi. Məhbusun ölümündən sonra oğlu Vazgen Yegiazaryan Ermənistanın baş naziri və parlamentin bir qrup deputatına açıq məktub ünvanlayaraq, onları atasının ölümünə bais olmaqda günahlandırıb. Siyasi məhbusun ölümü erməni cəmiyyətində narazılıqları artırıb. Narazı vətəndaşlar hakimiyyəti onları rahat buraxmağa çağırırlar.

AZƏRTAC xəbər verir ki, sosioloq Aqaron Adibekyan isə siyasi məhbusun ölümünün utancverici hal olduğunu açıqlayıb. Onun sözlərinə görə, hökumət insanları təqib etməkdə davam edərsə etiraz dalğası daha da güclənəcək. Onsuz da Ermənistanda insan haqları kobud şəkildə pozulur. Avropa parlamentariləri, beynəlxalq qurumlar isə buna göz yumurlar. Ermənistanda elə bir sahə yoxdur ki, orada problem yaranmasın. Vergi ödəyiciləri başladıqları itaətsizlik aksiyaları çərçivəsində yolları bağlayıblar. Onlar hökumət qarşısında vergi qanunvericiliyinə edilən dəyişikliyin ləğvi tələbini qoyublar.

İşğalçı ölkədə kriminogen vəziyyət də qeyri-sabitdir. İrəvanda fəaliyyət göstərən banklardan birində əlində bal-ta olan şəxs polisə hücum edib. Ermənistanın sabiq deputatı Melik Manukyanın restoranında isə atışma olub. Hadisə Abovyan şəhərində baş verib. Restoranda çox sayda güllə və giliz, "Makarov" və TT tipli tapançalar aşkar edilib. Polis ölən şəxsin və 8 yaralının kimliyini müəyyənləşdirir. Fakt üzrə cinayət işi açılıb.

## Con Kerrı: "Tramp ABŞ-ı rüsvay edir"



ABŞ-ın sabiq dövlət katibi Con Kerri prezident Donald Trampı ittiham edən bəyanat səsləndirib. SİA xəbər verir ki, bu barədə NET Network yazır. Bəyanatda bildirilir ki, Trampın diplomatiyası ABŞ-ı dünya arenasında rüsvay edir və ölkədəki demokratik əsasları dağıdır. O, eyni zamanda Demokratlar partiyasının tərəfdarlarına 2020-ci ildə keçiriləcək prezident seçkilərindəki kampaniya üçün pul yığmağa çağırıb. Qeyd edək ki, bugünlərdə Kerri bildirmişdi ki, əgər Trampla şəxsən danışmağa imkanı yaransaydı, onu dərhal istefa verməyə dəvət edərdi.

***Rövşən***

# "ABŞ münaqişənin həlli ilə əlaqədar ikinci həmləsini edir"

***"ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun prezident İlham Əliyevə zəngi ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar ikinci həmləsi adlandırıla bilər".***

Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. O bildirib ki, ilk həmlə 2000-ci ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə ATƏT-in zirvə toplantısı zamanı olmuşdu: "Həmin dövrdə də proseslərdə böyük irəliləyişlər var idi. Hətta sülh sazişinin imzalanmasına dair fikirlər mətbuata yol açmışdı. Lakin, həmin dövrdə Ermənistan parlamentinin güllləbaran edilməsi, spikerin, baş nazirin və deputatların öldürülməsi bu prosesi yarımçıq qoydu. Əgər zamanında bu reallaşsa idi, indi Ermənistan bəlkə də Azərbaycanın təşəbbüsü ilə



keçirilən böyük layihələrə qoşularaq, çox geniş imkanlar qazanmış olardı. Amma Ermənistan təcavüzkar və danışıqlar prosesində qeyri-konstruktiv mövqe tutmaqla bu layihələrdən kənarda qaldı, iqtisadi vəziyyəti daha da ağırlaşdı. Bu da təbiidir. Çünki, təcavüzkar dövlət bu cür də cəzalandırılmalıdır".

Hazırda ABŞ-ın regiona xeyli diqqət ayırdığını deyən politoloq söyləyib ki, burada məqsəd Rusiyanın təsirlərini zəiflətməkdir. Onun sözlərinə görə, ABŞ-ın regionda maraqları təkcə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı deyil, həm də enerji dəhlizinin, resurslarının Qərbə təhlükəsiz daşınmasının təminatı ilə bağlıdır: "Amma sözsüz ki, məsələnin mahiyyətində Dağlıq Qarabağ problemi dayanır. Boltonun zəngini tərəflərə - Azərbaycan və Ermənistana üçüncü bir dövlətin təsirinin, bəzən də təzyiqinin azaldılması, tərəflərin sülhə meylləndirilməsi ilə bağlı zəng də hesab etmək olar".

Q.Hüseynli bildirib ki, ABŞ Azərbaycanın regionda böyük və xüsusi çəkiyə malik dövlət olduğunu anlamağa başlayıb: "ABŞ başa düşür ki, Dağlıq Qarabağ münaqişəsinin həlli bu bölgədə azad münasibətlərin formalaşması, strateji maraqların reallaşmasına böyük köməklik göstərə bilər. Zənnimcə Bolton ABŞ prezidenti tərəfindən xüsusi bu işlərin həyata keçirilməsinə təhkim edilərək bu işdə fəallıq nümayiş etdirilməsi tapşırıq verilib".

Politoloq əlavə edib ki, Ermənistan tərəfinin hazırkı mövqeyi uzun müddət davam edə bilməz: "Əgər ABŞ sona qədər siyasi iradə nümayiş etdirərək, Ermənistana təsir etsə, o zaman düşmən ölkə konstruktiv mövqe nümayiş etdirə bilər. Hesab edirəm ki, ABŞ öz həmləsini sona qədər davam etdirəcək".

***Nailə Məhərrəmova***

# Əli Kərimlinin xəyanət kartları

*Xəyanətlər açıldıqca...*



***A**talar gözəl deyib: haqq nazilər, amma üzülməz. Deyəndə ki, Əli Kərimli xəyanətkar, satılıb-satan, Vətən xainidir, irad tuturlar. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən növbəti baxış iclasında şahid qismində dindirilənlərin verdikləri ifadələr, bir daha AXCP sədri Ə.Kərimlinin xarici qüvvələrin göndərdiyi maliyyəni əldə etmək məqsədi ilə ölkədə təxribatlar törətmək istəyini sübuta yetirir. Məhkəmə iclasında dindirilən şahidlər Elçin Əsgərbəyli, Cavid Məsimli, Tural Mehdixanov və Cavanşir Abışov AXCP sədrinə maliyyə vəsaiti toplanıldığını və bu pulların Ə.Kərimliyə çatdığını bildiriblər. Ən əsas məqam isə, AXCP sədrinə Rusiyada da toplanılan vəsaitlərin qanunsuz yollarla Ə.Kərimliyə çatdırıldığı da bildirilib.*

## Növbəti düyün... AXCP və "Milli Şura"da ara qarışdı

2013-cü ilin prezident seçkiləri ərəfəsində Rusiyada hazırlanıb, Bakıya ixrac edilən "Milli Şura"nı Rusiya vətəndaşlığı olan kinorejissor Rüstəm İbrahimbəyov gətirsə də, onun bu ölü quruma sədrlik etməməsi, satqınlığını bir daha ortaya qoydu. Yaranmış vəziyyətdən istifadə edən Ə.Kərimli "Milli Şura"nı AXCP-nin bir şöbəsinə çevirdi. Anlaşılan bu idi ki, Kremldəki bəzi dairələrin himayəsi ilə yaradılan bu qurumun bağlantıları Kərimliyə çox lazım idi.

Həyata keçirilən istintaq-əməliyyat tədbirləri nəticəsində, məlum olub ki, Azərbaycan Xalq Cəbhəsi Partiyası adlı qurumun funksionerlərindən Ə.Kərimli, Qənimət Zahidov, Saleh Rüstəmov, Vidadi Rüstəmli, Aqil Məhərrəmov, Ruslan Nəsirov, Babək Həsənov və digərlərinin Bakı şəhər sakinləri Ceyhun Hüseynov, Rauf İsgəndərov, Heydər Əhmədov, Tural Mehdixanov və qeyrilərinin üzv olduqları qurumun respublikamızda və xaricdə dövlətimizə, dövlətçiliyimizə və milli maraqlarımıza zidd olaraq keçirilən tədbirlərinin maliyyələşdirilməsi üçün qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində əldə edilmiş külli miqdarda çirkli pul vəsaitlərinin leqallaşdırılması əməllərini törətmələrinə dair kifayət qədər sübutlar toplanıb. Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə yaydığı məlumatda, daha sonra bildirilir ki, çevrəsinə pul kələyi axmasına adət etmiş Ə.Kərimli Rusiyadan gələn külli miqdarda vəsaitlə bağlı ənənəsinə sadiq qalıb. Cəbhəçilər də təsdiqləyib ki, Rusiyadan hər ay AXCP-yə, 30 min dollar pul gəlib. Ancaq Ə.Kərimli bunun hesabatını saxta şəkildə verərək bildirirmiş ki, guya hər ay Rusiyadan ona 500, bəzən 1000 dollar məbləğində dəstək gəlir. Həmçinin, məlum olub ki, Moskvadan hər ay "Milli Şura" və AXCP adlı qurumlara nə az, nə çox - 412 min dollar vəsait daxil olub. Faktlar üzə çıxdıqca funksionerlər heyrət və qəzəb içindədir. Hətta funksionerlərin çoxu Ə.Kərimlinin bu maliyyə maxinasiyaları haqda açıq danışacağı və sosial şəbəkələrdə məlumat verəcəyi də bildirilir.

## Eynulla Fətullayev: "Ə.Kərimli və cəbhəçilər quduz oğru itlərdir"

Jurnalist Eynulla Fətullayev özünün "facebook" hesabında AXCP sədri və onun tərəfdarlarına həsr etdiyi statusda maraqdoğurucu iddia ilə çıxış edərək bildirib ki, Ə.Kərimli və digər murdar cəbhənin virusları oğru itlərdir: "Bu siyasi cinah öz murdar mahiyyətini ortaya qoyur. Məncə, günahkar Ayaz Mütəllibovdur. 1992-ci ildə bu nadan siyasi kütləni quduz itlər kimi güllələsəydi, Azərbaycan siyasətindən belə üfunət gəlməzdi... E.Fətullayev, həmçinin, 19 yanvar mitinqinin sonra AXCP sədri Ə.Kərimlinin sosial şəbəkələrdə ABŞ-da yaşayan xəyanətkar Sevinc Osmanqızının verilişindən xalqı iqtidarın deyil, müxalifətin mətbuat orqanlarını oxumağa çağırışı və sərt status paylaşdığını deyib: "Bax, budur, satqınçılıq, xəyanətkarlıq, riyakarlıq və nəhayət, həyasızlıq. Heç də 20 il ərzində dəyişməyən iyrəncilik, alçaqlıq. Bir də bu alçaqları Azərbaycan siyasətindən, Azərbaycan məmləkətindən tamamilə silmək lazımdır! Suriyada müharibə alovunu da bu cür vəhşi kütlə törətdi. Bu murdar kütləyə tarixdə 2-ci şans verilməməlidir. Vəhşi siyasi qüvvəni hakimiyyətə buraxmaq olmaz!!! Əgər siz düşünürsünüzsə ki, bunlar bədxahlıqlarınızın hamısıdır, bərk yanılırsınız. Hələ daha nələr var..."

***Rəfiqə HÜSEYNOVA***

# Bakcell və İNNOLAND yerli developerlər üçün tədbir keçirib




Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti İNNOLAND Inkubasiya və Akselerasiya Mərkəzi ilə birgə yerli oyun developerləri üçün Global Game Jam(r) (GGJ) hackathon tədbirini təşkil edib.

Global Game Jam(r) (GGJ) dünyanın müxtəlif ölkələrində təşkil olunan ən iri oyun yazma müsabiqəsidir. Oyunların yazılması üzrə keçirilən bu beynəlxalq hackathon yarışması insanlara bir araya gəlib yaradıcılıqnan məşğul olmaq, təcrübəni bölüşmək və özlərini video oyunlar vasitəsilə ifadə etmək üçün imkan yaradır. Bütün dünyadan olan developerlər 48 saat ərzində yeni texnoloji alətləri ilə tanış olmaq, özünü yeni sahələrdə sınamaq, bacarıqlarını göstərmək və tam yeni bir oyunu yaratmağa dəvət olunurlar.

Bakıda keçirilmiş müsabiqənin 17 nəfər iştirakçısı 3 komandaya bölünüb 3 yeni oyun yazmağa nail olublar. Tədbirin sonunda bütün iştirakçılara ASAN INNOLAND Mərkəzinin əsas sponsoru olan Bakcell şirkətindən hədiyyələr təqdim olunub.

Qeyd edək ki, keçən ilin sonunda Bakcell şirkəti ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İNNOLAND Inkubasiya və Akselerasiya Mərkəzi arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Bu tərəfdaşlıq Azərbaycanda startap mədəniyyətinin formalaşdırılması, bu hərəkatın geniş vüsət alması, innovativ təşəbbüskarlıq ruhunun və startap ekosisteminin inkişaf etdirilməsi, mövcud startapların dəstəklənməsi, ölkəmizdə innovativ təşəbbüslərin mövcud iqtisadi proseslərə tətbiqinə şəraitin yaradılması, müxtəlif kəşf və ixtiraların işlənib və hazırlanmasına maraqoyadıcı amilin formalaşdırılması və innovasiyaların inkişafına əsaslanan digər tədbirlərin görülməsi istiqamətində böyük əhəmiyyət kəsb edir.

"İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzin Azərbaycanda, eyni zamanda, onun hüdudlarından kənarda özəl sektorun inkişaf etdirilməsi, innovasiyanın təşviqi və startap hərəkatının genişləndirilməsi üçün yaradılan inkubasiya, akselerasiya və araşdırma mərkəzidir. İNNOLAND Kovörkinq, İnkubasiya, Akselerasiya və İT Təlim-Tədris Mərkəzindən ibarətdir. Bakcell şirkəti həmçinin yerli startap layihələrinə daha geniş formatda dəstək göstərmək məqsədilə Akselerasiya Mərkəzi kimi fəaliyyət göstərən AppLab proqramını həyata keçirir. 2014-cü ildən bəri müxtəlif avadanlıq və proqram təminatlarının tərtibi ilə məşğul olan yerli startaplar və developerlər öz ideyalarını həyata keçirmək üçün "Bakcell"dən dəstək alırlar.

İnnovasiyalar sahəsində özünü doğrultmuş lider olan Bakcell şirkəti daim yerli startapların inkişafı, təhsil, elm və texnologiya sahəsində həyata keçirilən layihələrə öz dəstəyini əsirgəmir.



# Üfunət girdabında eşələnənlər

**RƏFİQƏ**

***D**eyir adətən, insanın yaşına, başına, saçının ağlığına baxaraq, qiymət verirlər. Ancaq hər saçı ağarana, qocalana və bu qocalığa görə hər baş gəzdirənə nə ağsaqqal, nə də nurani deyirlər.*

Elə "Milli Şura" deyilən ölü qurumun zorən sədri, daha çox AXCP sədri Əli Kərimlinin əlaltısı, hətta nökəriqulu təsirini bağışlayan Cəmil Həsənli adlı əqidəsizlik prototipini "ağsaqqal" yox, kor saqqal adlandırmaq olar. Çünki bu ölkənin istənilən uğuruna barmaqarası baxan Cəmil Həsənlinin hər ifadəsində, hər bəyanatında Ə.Kərimli üfunətinin qoxusu gəlməkdədir. Bu yerdə hələ 2003-cü il prezident seçkiləri debatlarında prezidentliyə digər namizəd olan Araz Əlizadə C.Həsənlinin onunla yanaşı otuzdurulmasına etirazını bildirərək, bunu onun "ağzından üfunət iyi gəlir" iddiası ilə əlaqələndirmişdi. Ancaq bunu C.Həsənli hələ də anlamayıb ki, Əlizadənin bu iddiası arxasında onun bütün etik normaları ayaq altına alaraq, cəmiyyət qarşısında işlətdiyi rəzil ifadələri, təlxəkliyi və s. bir çox çatışmayan cəhətləri nəzərdə tutulmuşdu.

Bu, həqiqətən də, belədir. O da sirr deyil ki, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunmuş konfrans və müşavirələrdə də dövlət başçısı tərəfindən radikal, dağıdıcı, satqın və xəyanətkar müxalifətin ünvanına səsləndirilən əsaslı, haqlı və ədalətli ittihamlar bu gün də Əli Kərimlini, nə də onun nökəri-qulu Cəmil Həsənlini, nə digər gədaları yatmağa qoymur. Çünki onlar çox gözəl anlayırlar ki, rəzalətin zirvəsində dalana dirənmiş vəziyyətdədirlər və zaman gələcək ki, həmin gədalar rəzalət girdabına doğru yuvarlanacaqlar. Buna isə elə də çox müddət qalmayıb.

Bu gün ölkədə mövcud olan demokratik hakimiyyət, güclü, sarsılmaz xalq-dövlət birliyi, dövlətin xalqa müstəsna xidməti faktoru vaxtilə həmin bu Cəmil Həsənli tərəfindən də etiraf olunurdu. Özü də Milli Məclisdə, yazdığı çoxcildli kitablarda, məqalələrdə, beynəlxalq tribunalarda və s. Həmin Cəmil Həsənli tərəfindən ki, öz mandatını Ə.Kərimlinin maraqlarına qurban verməyərək, AXCP sıralarından istefa vermiş, Ə.Kərimlinin üzünə tüpürərək, ondan uzaqlaşmışdı! İndi isə, həmin C.Həsənli vaxtilə Əli Kərimlinin tüpürdüyü üzünü iştahla yalayır, hələ yalamaqdan da doymur!

Bax, budur, bu rəzil, xəyanətkar, üfunətli müxalifət gədaları... Necə deyərlər, üfunətə alışmış birisi, üfunət girdabında da olmalıdır.

# Novruz bayramının qeyri-iş günləri açıqlandı

Azərbaycanda bu il Novruz çərşənbələrinin qeyd olunacağı tarixlər açıqlanıb. AMEA-nın Şamaxı Astrofizika Rəsədxanasından bildirib ki, bu il ilk - Su çərşənbəsi fevralın 26-na təsadüf edəcək. X.Mikaylovun sözlərinə görə, martın 5-də Od, martın 12-də Yel çərşənbəsi olacaq. Novruzun ilaxır - Torpaq çərşənbəsi isə martın 19-da qeyd ediləcək. Bu il yaz fəsli ölkəyə martın 20-dən 21-nə keçən gecə saat 01:58-də gələcək.



X.Mikayılov qeyd edib ki, martın 20-si ölkəmizdə bayram axşamı, 21-i isə bayram günü kimi qeyd ediləcək. Xatırladaq ki, bu il Novruz bayramı ilə əlaqədar 20, 21, 22, 23, 24 mart qeyri-iş günləri olacaq. Bu il bayram günü hesab edilən 23 və 24 mart həftələrarası istirahət günləri ilə üst-üstə düşdüyündən 25, 26 mart da qeyri-iş günü hesab ediləcək. Beləliklə, Novruz bayramı günlərində 20-26 mart tarixləri qeyri-iş günləri olacaq.

# Zərifə Əliyevanın elmi nailiyyətləri

**"Akademik Zərifə xanım Əliyeva. Yüksək əqidə" kitabında yazıldığı kimi, elmi-tədqiqat işləri ilə yanaşı, Zərifə Əliyeva pedaqoji fəaliyyətlə də məşğul olmuş, biliklərini gənc nəsildən əsirgəməmişdir.**

1967-ci ildən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasında pedaqoji fəaliyyətə başlayaraq, əvvəlcə kafedranın dosenti, professoru, daha sonra müdiri vəzifəsində çalışmış, həkimlərin diplomdan sonrakı hazırlıqlarının tələblərə uyğun şəkildə aparılmasına əlverişli şərait yaratmışdır. Onun təkmilləşmə kursu keçən həkimlərə oxuduğu mühazirələrin, apardığı praktik məşğələlərin əsasını tibb elmində əldə edilən yeniliklərin şərhi, praktik vərdişlərə yiyələnmənin istiqamətləri, müasir tibbi cihazların gündəlik təcrübədə tətbiqi üsullarının dərindən mənimsənilməsi kimi mühüm istiqamətlər təşkil edirdi. Həmin dövrdə Zərifə Əliyeva praktik həkimlik fəaliyyəti ilə də məşğul olmuşdur: bir çox cərrahiyyə əməliyyatları aparmış, xəstələrə məsləhətlər vermiş, üstəlik, Onun fəaliyyəti yalnız öz klinikasına qapanıb qalmamış, bütün oftalmologiya təşkilatlarını və şöbələrini əhatə etmişdir. Bununla yanaşı, O, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici-həkimləri ilə pedaqoji iş aparmışdır .

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə Əliyevaya doktorluq dissertasiyası üzərində işləmək imkanı yaratmışdır. O, 1976-cı ildə H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda dissertasiya işini uğurla müdafiə edərək, əsl elm xadimi olduğunu bir daha təsdiqləmişdir. Dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, bu sahədə ilk fundamental tədqiqatlardan biri kimi dəyərləndirilmişdir. 1977-ci ilin əvvəllərində tibb elmləri doktoru elmi adına layiq görülmüş Zərifə Əliyeva Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda bir sıra səmərəli elmi-tədqiqat işlərinin təşkilatçısı olmuşdur. Görkəmli alim burada ətrafına istedadlı gənc həmkarlarını toplayaraq, elmi-tədqiqat işlərini, kadrların və elmi işçilərin hazırlanmasını müvəffəqiyyətlə təşkil edə bilmişdir.

Samir Mustafayev yazır: Zərifə xanım oftalmologiya elminin qlobal problemlərinin elmi həlli yolunda bir sıra konkret təşəbbüslərlə çıxış etmiş, 1977-ci ildə Onun təklifi ilə Bakıda Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Belə bir möhtəşəm tədbir respublikamızda ilk dəfə keçirildiyindən, böyük təşkilatçılıq bacarığı, gərgin zəhmət və təcrübə tələb edirdi. Akademik Zərifə Əliyeva bu işlərin öhdəsindən uğurla gəlmiş, Bakıda yüksək səviyyədə təşkil olunmuş plenum ümumən keçmiş İttifaqda böyük maraqla qarşılanmışdı.

Plenum Azərbaycanda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasının yaradılması ilə bağlı professor Zərifə Əliyevanın irəli sürdüyü təşəbbüsü də bəyənmişdir. 1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda Zərifə xanımın rəhbərliyi ilə yaradılmış laboratoriyada az intensivli zərərli istehsal sahələrində görmə orqanına fizioloji, klinik, funksional, histoloji mexanizmlərin təsirinin öyrənilməsi üzrə bir sıra qiymətli tədqiqatlar aparılmışdır.

Hər bir alimin əbədiyaşarlığını təmin edən mühüm amillərdən biri də onun özündən sonra qoyub getdiyi mükəmməl elmi məktəbdir. Akademik Zərifə Əliyevanın böyük zəhmət hesabına ərsəyə gətirdiyi dərs vəsaitləri, dərsliklər, elmi monoqrafiyalar bu gün təkcə Azərbaycanın deyil, ümumilikdə, dünya oftalmologiyasının sanballı xəzinəsinə çevrilmişdir. Bu əsərlər arasında "Kəskin virus konyuktivitləri", "Keratitlər, gözün damarlı traktının, torlu qişanın, görmə sinirinin xəstəlikləri, kataraktalar", "Qlaukoma və gözün hipertenziyası", "Görmə orqanının zədələnməsi", "Göz yaşı axmasının fiziologiya və histologiyası", "Şəkərli diabetdə göz xəstəlikləri", "Gözün mikrocərrahiyyəsi", "Göz bəbəyi haşiyəsinin adaptasiya və müdafiə funksiyası" və başqaları elmi ictimaiyyət və praktik həkimlər tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Alim göz yaşı aparatı xəstəliklərinin öyrənilməsinə xüsusi diqqət yetirmiş, bu sahəyə həsr etdiyi "Yaşaparıcı yolların fiziologiyası", "Yaşaparıcı yolların cərrahi müalicəsi", "Göz yaşı yollarının qoruyucu cərrahiyyə üsulları" və digər əsərləri ilə Azərbaycan lakrimologiyasının əsasını qoymuşdur.

Bunlarla yanaşı, Zərifə Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olmuş, bu sahəyə dair iki monoqrafiya hazırlamışdır. Bu monoqrafiyalardan "İridodiaqnostikanın əsasları" rəngli illüstrasiyalarla "Azərnəşr" tərəfindən, digər monoqrafiya isə "İridodiaqnostika" adı ilə 1988-ci ildə Moskvada nəşr edilmişdir. Xüsusi qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya dair ilk kitabları, məhz akademik Zərifə Əliyeva yazmışdır.

1980-ci ildə Zərifə Əliyevanın "Şin istehsalında gözün peşə patologiyası", "Gözün hidrodinamik sisteminin anatomo-fizioloji xarakteristikası", "Gözün və göz siniri yollarının yaşla əlaqədar dəyişiklikləri" adlı üç monoqrafiyası oftalmologiya elminə sanballı töhfə olmuşdur. Alimin bir sıra elmi işləri görmə orqanında bədxassəli şişlərin diaqnostikasına və müalicəsinə həsr olunmuşdur. Onun daktriologiyadan bəhs edən "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların deyil, həm də fizioloqların diqqətini cəlb etmişdir. Alim müasir dövrdə də hər bir oftalmoloqun stolüstü kitabı olan "Terapevtik oftalmologiya" əsərinin müəlliflərindən biridir. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) əksini tapmışdır. Bu kitab həm həkim-oftalmoloqlar, həm də həkimləri təkmilləşdirmə fakültələrinin müəllimləri üçün böyük əhəmiyyətə malikdir.

1980-ci ildə professor Zərifə xanım Əliyevaya elmi xidmətlərinə və pedaqoji kadrların hazırlanmasındakı fəaliyyətinə görə "Əməkdar elm xadimi" fəxri adı verilmişdir. 1981-ci ildə kimya istehsalında göz zədələnmələrinin profilaktikasının öyrənilməsi üzrə işlərinə, o cümlədən, "Şin istehsalında gözün peşə patologiyası" monoqrafiyasına görə, dünya şöhrətli alim oftalmologiya sahəsində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyası tərəfindən akademik M.İ.Averbax adına mükafata layiq görülmüşdür. SSRİ-də belə yüksək mükafata layiq görülən ilk qadın olması Onun fitri istedadını və alimlik keyfiyyətlərini bir daha parlaq təcəssüm etdirirdi. 1983-cü ildə görkəmli alim tibb elmindəki böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə, Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir. Zərifə Əliyeva heç zaman gərgin işdən usanmamış, ürəkdən və ilhamla çalışmışdır. Həkim kimi fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, səmimiyyəti və qayğıkeşliyi, insanlara və onların problemlərinə göstərdiyi diqqət, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırmışdır.

Akademik Zərifə Əliyeva bütün fəaliyyəti boyu həkimlik etikasını uca tutmuş, insan sağlamlığını ictimai sərvət, insanların gözlərinə nur bəxş olunmasını isə bəşəri humanizm kimi dəyərləndirmişdir. O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf etmişdir. Çoxsaylı məqalələri, çıxışları, məhz bu məsələyə həsr olunmuş, "Yüksək etimad" kitabı cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfə olmuşdur. Görkəmli alim yazırdı ki, həkimlə xəstənin birbaşa əlaqəsi müalicənin əhəmiyyətini yüksəldir, xəstəyə ümid verir, orqanizmin xəstəliyə qarşı müqavimətini artırır, bəzən dava-dərmandan da güclü təsir göstərir. O, həkim və xəstənin qarşılıqlı münasibətlərinin əsas qaydalarını tərtib etmiş, müalicə prosesində aparıcı rolunu göstərmiş, bütün tibb işçilərinin təkcə təhsilinin yox, həm də tərbiyəsinin vacibliyini ön plana çəkmişdir. Akademik Zərifə Əliyeva həmkarlarına həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq, həm də onu özünə qaytaran əsl humanist xidmətdir. Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi insanı sağalmaqla onu öz məninə qaytarmaq idi. Bu baxımdan, yüksək peşəkarlığı ilə həmkarları arasında seçilən alim hesab edirdi ki, tibb elminin fəlsəfəsini dərk etmək üçün, ilk növbədə, sağlam mənəvi-intellektual mühit, bütün tibb ictimaiyyətinin mənəvi-əxlaqi meyarlara yiyələnməsi tələb olunur. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq və onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir.

Bütün bu etik-fəlsəfi meyarlara hörmətlə yanaşdığı üçün akademik Zərifə Əliyeva yüksək etik-davranış təcəssümü kimi xatırlanır. Tanınmış həkim A.P.Nesterov xatirələrində yazır: "Mən Onu öz sahəsinin böyük alimi sayıram: həm oftalmologiya, həm də, xüsusilə, peşəkar oftalmologiya sahəsində. Oftalmologiya sahəsində, O, bir nömrəli alim idi. Peşəkarlıq zirvəsinə Zərifə xanım ona görə yüksələ bilmişdi ki, həkim olmaq, insana tibbi yardım göstərmək məsuliyyətinin əxlaqi-fəlsəfi mahiyyətini, bütünlüklə dərk etmiş, bunu tam dünyagörüşü dəyərinə çevirə bilmişdi. Belə bir peşə amalı hər kəsə müyəssər olmur".

Həkimlik sənətini insana sevgi əxlaqından ayırmayan Hippokrat deməşdi: "İnsana sevgi olan yerdə sənətə də məhəbbət var". Zərifə xanım bütün peşəkar həkimlik fəaliyyəti boyu əsrlərin əxlaqi sınağından çıxmış bu ülvi həqiqətə xidmət göstərmiş, nümunəvi həkim-xəstə münasibətlərini gənclərə yadigar qoyub getmişdir.

Deni Didro yazırdı ki, düzgün həyat tərzi qəlbin içindən gəlir. Lakin həyatın mürəkkəblikləri ilə romantizm çox zaman uyğun olmur. İnsan öz həyat tərzini düşünərkən, cəmiyyətin bütün proseslərinin mahiyyətini irəlicədən ölçüb-biçə bilmir. Bu mənada, Zərifə xanımın şəxsiyyətinin mühüm etik mənası Onun öz yaradıcılığına yüksək intellektual səviyyədə yanaşmasında, fəal mövqe seçə bilməsindədir. İctimai həyatda fəallığı ilə seçilən fədakar alim keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü, keçmiş İttifaqın Oftalmoloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü kimi cəmiyyətin tibbi maariflendirilməsi prosesində yaxından iştirak etmişdir.

Samir Mustafayev yazır:" Çoxşaxəli və gərgin fəaliyyətinə baxmayaraq, Zərifə Əliyeva həmişə qadın incəliyini və zərifliyini qoruyub saxlaya bilirdi. Hər kəsin qəlbinə yol tapmağı bacaran bu nəcib insan təkcə öz həmkarları ilə yox, sadə peşə adamları, alimlər, mədəniyyət və incəsənət xadimləri ilə də asanlıqla ünsiyyət qurur, həmişə ətrafında xeyirxahlıq mühiti yaratmağa nail olurdu. Bütün bunlarla yanaşı, Zərifə xanım Əliyeva qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı və yüksək mənəviyyat sahibi olmuşdur."

Ömür-gün yoldaşı, Ulu Öndər Heydər Əliyev deyirdi: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda, O, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda Onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, Onu bir dəqiqə belə unutmuram və unutmayacağam".

Bu kəlmələr isə Azərbaycan Prezidenti İlham Əliyevin Zərifə xanım Əliyeva haqqında xoş xatirələrindəndir: "Onun unudulmaz obrazı bu gün də mənim üçün çox əzizdir, doğmadır. Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda, yüksək mədəniyyət, alicənablıq - bütün bu gözəl amillər onda birləşmişdi. Zərifə xanım əsl ziyalı idi. Azərbaycan xanımına xas olan bütün müsbət keyfiyyətləri özündə birləşdirmişdi."

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Səs
Son səhifə 1 fevral

## "Polat Ələmdar" xanımından 10 milyon təzminat istəyir



Xəbər verdiyimiz kimi, 7 ildir evli olan Necati Şaşmaz və Nagehan Şaşmaz boşanır. SİA-nın türk mətbuatına istinadən verdiyi xəbərə görə, cütlüyün ayrılmasının səbəbi bəlli olub. Aktyorun vəkili boşanma prosessinin qalmaqallı olacağını bildirib. Boşanmaq üçün məhkəməyə ilk müraciət edən Necati olub. O, 10 milyon lirə təzminat və iki övladının qəyyumluğunu istəyib.

Vəkil məhkəməyə təqdim etdiyi şikayət ərizəsində Nagehanın evliliyini ağır hərəkətlərlə sarsıtdığını qeyd edib. Almaniya vətəndaşı olan Nagehanın uşaqları özü ilə xaricə aparmasına da qadağa qoyulması tələb edilib. Belə ki, aktyor arvadının övladlarını ondan qaçırdacağını güman edir.

## Yəhudi alimlər xərçəng əleyhinə peyvənd yaradıblar



İsrailin "Accelerated Evolution Biotechnologies" dərman şirkəti müasir tibbdə irəliləyişə nail olduğunu iddia edir. Oxu.az xəbər verir ki, alimlərin sözlərinə görə, onlar ilk dəfə olaraq fəsadları olmayan və əks təsirə malik olmayan xərçəng əleyhinə universal peyvənd yarada biliblər.

İsrailli onkoloqlar bildirirlər ki, xəstəliyə yüksək aktiv təsiredici maddə ilə yüklənmiş xüsusi peptidlərin vasitəsilə qalib gəlmək mümkündür. Alimlər qeyd edirlər ki, bu cür dərman xərçəng hüceyrələrini əhatəyə alaraq orqanizmdən çıxarır. Onların fikrincə, bu metod o qədər sadə və effektlidir ki, kimya terapiyasından tamamilə imtina etməyə və immuniteti yüksəltməyə imkan verir. Britaniyalı tibb işçiləri isə xəbəri dəyərləndirməyiblər. Böyük Britaniyanın ən yaxşı onkoloqları bəyan ediblər ki, israilli mütəxəssislərin araşdırmaları ümidverici deyil və onların dərmanları effektivliyi haqqındakı sözləri şişirdilib. Qeyd olunur ki, siçanlar üzərində keçirilən yeganə eksperimentin nəticələrini indiyə qədər heç kim görməyib. Dərman ləvazimatının insanlar üzərində sınağının başlanmasına qədər isə bir neçə il keçə bilər.

## "Neftçi"nin böyük komanda olduğunu bilirik"

"Qarabağ"ın futbolçusu Riçard Almeyda Topaz Premyer Liqasının 15-ci turunda "Neftçi" ilə oyun öncəsi fikirlərini bildirib. Braziliyalı futbolçu jurnalistlərə açıqlamasında bunları deyib: "Rəqibin böyük komanda olduğunu hamımız bilir, ona hörmət və səbirlə yanaşırıq.Hər iki komandanın keyfiyyətli oyunçuları var".

Onun sözlərinə görə, hələ çempionun kim olacağını demək olmaz: "Mövsümün yarısı geridə qalıb. İrəlidə bizi çətin matçlar gözləyir". Azarkeşləri 12-ci oyunçu adlandıran braziliyalı oyunçu matçın harada keçirilməsinin önəmli olmadığını bildirib.

## Litvada qrip epidemiyası 8 insanın həyatına son qoydu

Bu mövsüm qrip epidemiyasının sürətlə yayılması fonunda Litvada səkkiz ölüm faktı qeydə alınıb. Litvanın Yoluxucu Xəstəliklər və QİÇS Mərkəzinin (ULAC) məlumatında deyilir: "Zərərçəkənlərin heç biri vaksinasiya olunmayıb. Çoxunun sağlamlıqla bağlı başqa problemləri olub. Onların hamısı əvvəlcə evdə müalicə olunmaq istəyib".

ULAC-ın məlumatına görə, qrip qurbanlarının yaşı 50-95 civarındadır. Son günlər Litvada qrip epidemiyasının yayılması sürətlənərək, ölkə bələdiyyələrinin təqribən üçdəbir hissəsini əhatə edib. 60 bələdiyyədən 18-i, o cümlədən Vilnüs bələdiyyəsi qrip epidemiyasının başlandığını elan edib. Qripin intensivliyi yanvar ayının üçüncü həftəsində hər 10 min sakinə 146 yoluxma faktı ilə müqayisədə dördüncü həftəsində hər 10 min nəfərə 156 yoluxma faktı təşkil edib.

## Açıqlandı: "2019-cu ildə dörd Formula 1 festivalı keçiriləcək"



Formula 1 rəhbərliyi 2019-cu ildə dörd yürüş festivalı hazırlayır. "RaceFans"ın məlumatında deyilir ki, qarşıdan gələn mövsümdə festivallar üç ölkədə - aprel ayında, Çin Qran-Prisi ərəfəsində Şanxayda keçiriləcək və dünya çempionatı tarixində mininci Qran-Priyə həsr olunacaq. İki festival ABŞ-da nəzərdə tutulub: Kanada Qran-Prisindən əvvəl Çikaqoda və oktyabr ayında Ostin mərhələsi ərəfəsində Los-Ancelesdə.

Daha bir festival Braziliya Qran-Prisi ərəfəsində Rio-de-Janeyroda keçiriləcək. Maraqlıdır ki, ötən il festivallar dörd başqa şəhərdə - London, Marsel, Milan və Mayamidə təşkil edilib.

Xatırladaq ki, Formula 1-in mövsümqabağı testləri fevralın 19-da Barselonada başlayacaq. Mövsümün birinci yürüşü martın 17-də Avstraliyada keçiriləcək.

## Superliqanın bombardiri "Qalatasaray"da



"Qalatasaray" heyətini yeni hücumçu ilə gücləndirib. İstanbul klubunun rəsmi saytında yer alan xəbərə görə, İstanbul təmsilçisi "Kasımpaşa"dan Mbaye Dianı transfer edib. Seneqallı forvardla 4.5 illik müqavilə bağlayan "sarı-qırmızılılar" qarşı tərəfə 10 milyon avro təzminat ödəyəcək.

Qeyd edək ki, ötən ilin qışında "Kasımpaşa"ya keçən 27 yaşlı futbolçu bu mövsüm 17 oyunda vurduğu 20 qolla hazırda Superliqanın bombardiridir.

## Deyn Uayt: Həbib Nurmaqomedova sərt cəza verilib



Mütləq Döyüş Çempionatının (UFC) prezidenti Deyn Uayt qarışıq döyüş növləri üzrə rusiyalı idmançı Həbib Nurmaqomedovun verilən cəzanın ağır olduğunu bildirib.

AZƏRTAC xəbər verir ki, D.Uayt bu barədə deyib: "Həbibin işi üzrə verilən qərar məni heyrətləndirdi. Yarım milyon dollar cərimə və reklam çarxlarında çəkiləcəyi halda diskvalifikasiya müddəti altı aya qədər azaldılacaq. Düşünürəm ki, bu, çox sərt cəzadır".

Xatırladaq ki, ABŞ-ın Nevada ştatının atletika komissiyası (NSAC) çərşənbə axşamı UFC çempionu Həbib Nurmaqomedovu Las-Veqasda baş tutan "UFC 229" turnirində irlandiyalı Konor Makqreqorla döyüşdən sonra saldığı davaya görə doqquz ay müddətinə diskvalifikasiya edib. O, idman yarışlarından kənarlaşdırılmaqla yanaşı, həm də 500 min dollar məbləğində cərimələnib. Reklam çarxlarına çəkiləcəyi təqdirdə diskvalifikasiya müddətinin altı aya qədər azaldılacağı barədə şərti isə H.Nurmaqomedov qəbul etməyib.

Xatırladaq ki, H.Nurmaqomedov ötən il oktyabrın 7-də irlandiyalı Konor Makqreqoru məğlub edərək çempionluq kəmərini qoruyub. Rusiyalı döyüş ustası qarışıq döyüş növləri üzrə keçirdiyi 27 qarşılaşmanın hamısında qalib gəlib.

## "Mançester Yunayted"in futbolçusu Çin klubunda oynayacaq



"Mançester Yunayted"in yarımmüdafiəçisi Mauran Fellaini Çinə yola düşüb. SİA-nın xarici mətbuata istaindən verdiyi məlumata görə, futbolçu bu ölkənin "Şandonq Lunenq" klubunda oynayacaq. 31 yaşlı belçikalı yeni klubunda artıq tibbi müayinədən keçib. Fellaini 3 illik müqavilə imzalayıb. Onun transferinə 10 milyon funt xərclənib.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500